Xalqın qəzeti!

# Xalq qəzeti

№ 109 (30803) 27 may 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**(ardı 5-6-cı səhifələrdə)**

# Bölgələrin hərtərəfli inkişafı ümummilli hədəfdir

## Prezident İlham Əliyevin İsmayıllı rayonuna səfəri

### Muğanlı–İsmayıllı–Qəbələ yolunun çəkilişi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Bakı–Şamaxı–Muğanlı-İsmayıllı–Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsində görülən işlərlə tanış olub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə, ümumilikdə, işlərin 70 faizi icra edilib. İkinci texniki dərəcəyə uyğun qurulan yolun ümumi uzunluğu 85,6 kilometrdir. Yenidənqurma nəticəsində yol 8,8 kilometr qısalacaq. Yolboyu Ağsuçay çayı üzərində asma körpü inşa olunur. Körpüdə işlərin 40 faizi yerinə yetirilib. Körpüdən sonra yolun davamı olaraq uzunluğu 885 metr olan tunelin tikintisi aparılır. Ümumilikdə, yeni layihə üzrə yolboyu tunel və biri asma olmaqla, 17 körpü layihələndirilib.

**(ardı 2-ci səhifədə)**

## Azərbaycan–Aİ münasibətlərində yeni mərhələ

*Brüssel dialoqu ikitərəfli əlaqələrdə strateji mahiyyətli addımdır*



**2025-ci ilin may ayında Brüsseldə keçirilən yüksək səviyyəli görüşlər Azərbaycan–Avropa İttifaqı (Aİ) münasibətlərinin dərinləşməsi baxımından mühüm siyasi siqnal kimi qiymətləndirilə bilər. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Aİ rəsmiləri ilə keçirdiyi görüşlər bir neçə strateji aspektdən əhəmiyyət kəsb edirdi.**

H.Hacıyevin Brüsseldə apardığı danışıqların arxa planında dayanan əsas kontekst Prezident İlham Əliyevin Albaniyanın paytaxtı Tiranada Avropa Şurasının sədri Antoniu Koşta və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenlə keçirdiyi görüşlərin məntiqi və siyasi davamıdır. Tirana görüşü Azərbaycan–Aİ münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qəbul olunur. Həmin görüşdə əsas diqqət tərəflər arasında təkcə enerji əməkdaşlığına deyil, həm də Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və uzunmüddətli tərəfdaşlığa yönəlmişdi. Bu da Aİ-nin Azərbaycanı, sadəcə olaraq, enerji təchizatçısı kimi deyil, həm də regional sabitliyin təminatçısı, siyasi dialoqun mühüm tərəfdaşı qismində tanımaqda maraqlı olduğunu göstərir.

**(ardı 9-cu səhifədə)**

## Qafqazın yeni "üçbucağı"



Səhifə ⇨ 11

## Aşqabad nəqliyyat sazişi: İrəvanın məkrli siyasi manevrləri



Səhifə ⇨ 15

## Azərbaycanın 2 şərti və Ermənistanın direnişi

*Nikol Paşinyan yenə nala-mıxa vurur*

**Psixologiyada koqnitiv kondisionlaşdırma ifadəsi var. Bu ifadə insanların düşüncə və davranışlarının təkrar informasiya vasitəsi ilə yönləndirilməsi anlamı daşıyır. Həqiqət illüziyası termini isə təkrarlanan yalanın zamanla gerçəklik kimi qəbul edilməsidir. Təkcə Ermənistanın baş naziri Nikol Paşinyan deyil, ümumən rəsmi İrəvanın ayrı-ayrı təmsilçiləri son vaxtlar tutuquşu kimi eyni cəfəng məqamı dəfələrlə qabardaraq, onu reallıq qiyafəsində göstərməyə, bu yolla beynəlxalq ictimai rəyə təsir etməyə çalışırlar. Nikolun "İrəvan dialoqu -2025" forumundakı çıxışı da bunu söyləməyə əsas verir.**

**(ardı 10-cu səhifədə)**



## Eçmiədzinin növbəti hoqqabazlığı

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurasının mayın 22-də keçirilən iclasında İrəvan Qazılığının fəaliyyətinin bərpa edilməsi, Bəxtiyar Nəcəfovun səsvermə yolu ilə İrəvan qazısı seçilməsi barədə qərarı, eləcə də idarənin sədri şeyxülislam Allahşükür Paşazadənin səsləndirdiyi fikirlər Ermənistanda, daha doğrusu, erməni apostol kilsəsində dərin narahatlığa səbəb olub. Kilsə mayın 23-də bununla bağlı xüsusi bəyanatla çıxış etməyi özünün "mənəvi borcu" bilib.**

**(ardı 9-cu səhifədə)**



# Bölgələrin hərtərəfli inkişafı ümummilli hədəfdir

## Muğanlı–İsmayıllı–Qəbələ yolunun çəkilişi ilə tanışlıq










**(əvvəli 1-ci səhifədə)**

Bakı–Şamaxı–Muğanlı–İsmayıllı–Qəbələ avtomobil yolu əhalinin rahat gediş-gəlişində xüsusi əhəmiyyətə malik olmaqla paytaxt Bakını İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ilə birləşdirən ən qısa magistral hesab edilir. Respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin tapşırığına əsasən layihələndirilib.

## Dövlət başçısı İsmayıllıda Ümummilli liderin abidəsini ziyarət edib



**Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.**

## Prezident İlham Əliyev İsmayıllıda "Talıstan" liseyinin açılışında










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə İsmayıllı şəhərində inşa olunan internat tipli "Talıstan" liseyinin binasının açılışında iştirak edib. İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov dövlətimizin başçısına təhsil ocağında yaradılmış şərait barədə məlumat verdi.**

Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkəmizin bir çox regionlarında beynəlxalq tələblərə cavab verən yeni məktəb binalarının inşasına, onların müasir avadanlıqla təchiz olunmasına xüsusi diqqət yetirilir, bir sıra köhnə məktəb binalarının əsaslı təmiri istiqamətində mühüm işlər görülür. 1296 şagird yerlik lisey də "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunub. Dörd mərtəbədən və 5 korpusdan ibarət binada 56 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, informatika, texnologiya, gənclərin çağırışaqədərki hazırlıq kabinetləri, kitabxana, 300 yerlik akt zalı, idman zalı və yeməkxana yaradılıb.

Bu layihənin icrası Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində təhsil sahəsinə ayrılan diqqətin göstəricisidir. Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşıb, bu istiqamətdə bir neçə vacib layihə həyata keçirib. Müasir məktəblərin qurulması həm də Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsində olduqca mühüm rol oynayır.

"Talıstan" liseyində yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısına son illərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, o cümlədən 2020–2025-ci illərdə istifadəyə verilən istehsal müəssisələri və istirahət mərkəzləri barədə məlumat verildi. Həmin dövrdə rayonda fəaliyyətə başlamış bu obyektlərdə 400-ə yaxın iş yeri açılıb.

Prezident İlham Əliyevə rayonun Tircan kəndində su istehsalı müəssisəsinin inşası ilə bağlı məlumat verildi. İllik istehsal gücü 25 milyon litr olan müəssisədə 80 nəfər işlə təmin ediləcək.

Qeyd edək ki, ölkəmizin turizm mərkəzlərindən biri olan İsmayıllı rayonu son illər sürətlə inkişaf edib. İndiyədək dövlətimizin başçısı bu rayonda 10 dəfə olub. Azərbaycan Prezidentinin İsmayıllıya hər səfəri rayonun ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilməklə yanaşı, yeni sosial-iqtisadi inkişaf mərhələsinin təməlini qoyub. Bütün bunlar rayonda aparılan tikinti-quruculuq işlərinin, məhsul buraxılışının, sənaye və kənd təsərrüfatı məhsulunun həcmində, yeni iş yerlərinin açılmasında özünü aydın göstərir.

# Bölgələrin hərtərəfli inkişafı ümummilli hədəfdir

## “Azerbaijan Coca-Cola Bottlers” MMC-nin İsmayıllıda yeni istehsal müəssisəsi açılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da “Azerbaijan Coca-Cola Bottlers” MMC-nin İsmayıllıda yeni istehsal müəssisəsinin açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin “Anadolu Grubu”nun İdarə Heyətinin fəxri sədri Tuncay Özilhan və “Azerbaijan Coca-Cola Bottlers” MMC-nin baş direktoru Rəna Məmmədova dövlətimizin başçısına müəssisə barədə məlumat verdilər.

İsmayıllı rayonunun Topçu kəndində yerləşən bu müəssisə 15 hektar ərazidə inşa edilib və illik 165 milyon litr istehsal gücünə malikdir. Layihənin investisiya dəyəri 80 milyon manatdır. Beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verən müəssisədə 100-dən çox yerli sakin daimi işlə təmin olunub. Bu, “Coca-Cola Bottlers” MMC-nin ölkəmizdə ikinci istehsal müəssisəsidir. Yeni müəssisə tərəfindən istehsal olunacaq məhsulların əsasən daxili bazarda satışı nəzərdə tutulub. Müəssisə İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilən investisiya təşviqi sənədi çərçivəsində 7 il müddətində mənfəət və gəlir vergisindən 50 faiz güzəşt əldə edib. Bundan əlavə, əmlak və torpaq vergisindən, texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə ƏDV-dən və gömrük rüsumlarından azad olunub. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən layihənin maliyyələşdirilməsinə 10 milyon manat güzəştli kredit ayrılıb. “Azerbaijan Coca-Cola Bottlers” MMC ətraf mühitin mühafizəsi üzrə öhdəliklərə sadiq qalaraq istehsal zamanı sərf olunan enerjinin bir qismini günəş panelləri vasitəsilə əldə olunan yaşıl enerji ilə təmin etməyi nəzərdə tutur.

İsmayıllı rayonunda belə bir istehsal müəssisəsinin açılması bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, sənaye potensialının reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Yeni müəssisənin açılması istehsalın lokallaşdırılmasını, texnologiya transferini və idxalın əvəz edilməsini stimullaşdırır.

Qeyd edək ki, regionların davamlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi dövlətimizin başçısı tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar şərait, güzəşt və imtiyazlar onları ölkəmizə daha çox sərmayə yatırmağa sövq edir. “Coca-Cola”nın Azərbaycana investisiyalarının artırılması da ölkədə əlverişli biznes mühitinin və cəlbedici investisiya şəraitinin mövcudluğundan irəli gəlir. Paytaxtla yanaşı, regionlarımıza yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrimizin iqtisadi potensialının daha da möhkəmləndirilməsində çox böyük rol oynayır. “Azerbaijan Coca-Cola Bottlers” MMC ölkəmizdə istehsala 1996-cı ildə başlayıb. Şirkət indiyədək Azərbaycan iqtisadiyyatına 200 milyon dollar sərmayə yatırıb.

*AZƏRTAC*








# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident, əziz Qardaşım!**

Can Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizi və qardaş Azərbaycan xalqını xalqım adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar bayramın ildönümündə Türkiyə kədərli və sevincli günlərdə hər zaman birlikdə olduğu Can Azərbaycanın həm regionda, həm də onun hüdudlarından kənarda əldə etdiyi nailiyyətlərdən qürur duyur və yüksəksəviyyəli əlaqələrimizi “Bir millət, iki dövlət” ruhunda daha da möhkəmləndirmək istiqamətindəki qarşılıqlı iradəmizdən böyük məmnunluq hissi keçiririk. Qardaşlıq əlaqələrimizin və bənzərsiz əməkdaşlığımızın bizi ortaq inkişaf hədəflərimizə gündən-günə daha çox yaxınlaşdırdığını, ölkələrimizi daha da güclü və firavan etdiyini məmnuniyyətlə müşahidə edirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına rifah və firavanlıq arzulayır, Can Azərbaycanın Müstəqillik Gününü bir daha ürəkdən təbrik edirəm.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Sizə və Sizin şəxsinizdə dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı ifadə etməkdən şərəf duyuram.

Siz keçən ay Çində uğurlu dövlət səfərində oldunuz və biz birlikdə Çin–Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasını elan etdik, bununla da ikitərəfli əlaqələrin inkişafı üçün yeni perspektivlər açdıq, yeni vəzifələr müəyyənləşdirdik.

Mən Çin–Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm və çoxvektorlu qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsi, ikitərəfli əlaqələrin yeni səviyyəyə yüksəlməsi, Çin və Azərbaycan xalqlarının rifahı naminə ölkələrimizin inkişafına dəstək verilməsi üzrə Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və uğurlar, dost Azərbaycana tərəqqi və qüdrət, onun xalqına isə xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi Serbiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ölkənizin firavanlığı və xalqınızın rifahı naminə ən xoş arzularımı çatdırıram.

Serbiya Respublikası Azərbaycan Respublikası ilə ilk gündən qarşılıqlı etimada, ehtirama və hörmətə, beynəlxalq hüququn fundamental prinsiplərinə ardıcıl şəkildə riayət olunmasına sadiqliyə əsaslanan münasibətlərin inkişafına böyük əhəmiyyət verir.

Ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində fəaliyyətinizi yüksək qiymətləndirirəm. Görüşümüzü səbirsizliklə gözləyirəm və fəxr edirəm ki, bizi dostluq münasibətləri ilə yanaşı, strateji tərəfdaşlıq da birləşdirir. Əminəm ki, Strateji Tərəfdaşlıq Şurasının qarşıdan gələn Birinci Sessiyası qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın möhkəmlənməsinə təkan verəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Serbiya Respublikasının bütövlüyünü qorumaq, Kosovo və Metoxiya məsələsini sülh yolu ilə və diplomatik vasitələrlə həll etmək istiqamətində səylərini prinsipial və qəti şəkildə dəstəklədiyiniz üçün Azərbaycan Respublikasına və şəxsən Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Zati-aliləri, əmin olun ki, Serbiya Respublikası da öz növbəsində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə dəstəyini davam etdirəcəkdir.

Möhtərəm cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına İndoneziya Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf və məmnunluq duyuram. Bu əlamətdar gün Azərbaycanın tarixində xalqın qətiyyətini, birliyini və arzularını əks etdirən qürurverici bir səhifədir.

İcazə verin, bu tarixi gündə İndoneziya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğumu bildirim. Əminəm ki, Zati-alinizin rəhbərliyi ilə ölkələrimiz enerji, ticarət, investisiya, təhsil, mədəniyyət və insanlar arasında mübadilə kimi sahələrdə əməkdaşlığın yeni yollarını araşdıraraq tərəfdaşlığı inkişaf etdirəcək və möhkəmləndirəcək. Əməkdaşlıq ruhu, həmçinin qlobal sülh, sabitlik və davamlı inkişaf kimi ümumi məqsədlərimizi dəstəkləməkdə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq, firavanlıq və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Prabovo SUBİANTO,***
***İndoneziya Respublikasının Prezidenti***

**Zati-aliləri!**

Ukrayna xalqı adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azad Ukrayna və Azərbaycan həmişə öz münasibətlərini ortaq dəyərlərə, qarşılıqlı dəstəyə, hörmətə və hərtərəfli əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq ruhunda inkişaf etdirməyə çalışmışlar.

Əminəm ki, strateji tərəfdaşlıq münasibətlərinin dinamikası yalnız qorunub saxlanılmayacaq, eyni zamanda, Ukrayna və Azərbaycan xalqlarının maraqları naminə daha da möhkəmləndiriləcəkdir.

Bu gün Rusiyaya qarşı mübarizədə Ukrayna beynəlxalq dəstəyi yüksək qiymətləndirir və biz Azərbaycanın dövlətimizin suverenliyini və ərazi bütövlüyünü beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq dəstəkləməsinə, eləcə də humanitar yardım göstərilməsinə görə minnətdarıq.

Bu fürsətdən istifadə edərək, Sizə, çox hörmətli cənab Prezident, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

***

**Zati-aliləri!**

Əlamətdar bayram – ölkənizin müstəqilliyinin 107-ci ildönümü münasibətilə Zati-alinizə, hörmətli ailənizə və Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu mühüm bayram Cümhuriyyətin yaradılmasının qeyd olunması ilə yanaşı, xalqın zəngin irsi və heyrətamiz tərəqqisi ilə də səciyyələnir.

Əminəm ki, Zati-alinizin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycan Respublikası sülh, firavanlıq və sürətli inkişaf yolunda irəliləməkdə davam edəcəkdir.

Qoy Malayziya ilə Azərbaycan Respublikası arasında çoxillik dostluq münasibətləri və genişlənən əlaqələr bundan sonra da xalqlarımıza qarşılıqlı fayda gətirərək inkişaf etsin və möhkəmlənsin!

**Hörmətlə,**

***Əlahəzrət Sultan İBRAHİM,***
***Malayziyanın Kralı***

***

**Zati-aliləri, möhtərəm Prezident İlham Əliyev!**

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının xalqı və hökuməti adından və öz adımdan Zati-alinizə səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayırıq.

Zati-alinizə məmnuniyyətlə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

***

**Zati-aliləri!**

Əlamətdar bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Pakistan xalqı və Hökuməti adından, şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Pakistan Azərbaycanla bütün vacib məsələlərdə qarşılıqlı etimada, nümunəvi səmimi münasibətlərə və bir-birinə qətiyyətli dəstəyə əsaslanan tarixən çox gözəl qardaşlıq əlaqələrini yüksək qiymətləndirir. Məmnunluqla bildirmək istərdim ki, Sizin müstəsna liderliyiniz və güclü dəstəyiniz sayəsində dostluq münasibətlərimiz müsbət istiqamətdə inkişaf edir və biz onları daha geniş qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa çevirmək üçün birlikdə işləyirik.

Hindistanla yaşanan son böhran zamanı Pakistana davamlı dəstəyinizə görə Zati-alinizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Pakistanla davamlı həmrəylik nümayiş etdirdiklərinə görə azərbaycanlı qardaşlarımıza da təşəkkür edirik. Həqiqətən əsl qardaşlar olaraq, xüsusilə də talelərimiz bir-birinə oxşar olduğu üçün qəlblərimiz həmişə bir döyünür. Mən yaxın günlərdə gözəl ölkənizə səfər edəcəyimi səbirsizliklə gözləyirəm.

Gözəl Bakı şəhərinə 2025-ci ilin fevralında səfərim zamanı ən səmimi və məhsuldar müzakirələrimizi böyük məmnunluqla xatırlayıram. Zati-alinizin Pakistan-Azərbaycan münasibətlərini daha da möhkəmləndirmək istiqamətində yenilməz qətiyyətini yüksək qiymətləndirirəm.

Əminəm ki, yüksəksəviyyəli əməkdaşlıq dinamikası tezliklə qarşılıqlı maraq kəsb edən bütün sahələrdə nəzərəçarpacaq nəticələrin əldə olunmasına təkan verəcək, İnşallah! Mən ən qısa zamanda Sizi münasib vaxtda Pakistanda qarşılamağı səbirsizliklə gözləyirəm.

Zati-alinizə cansağlığı, uğurlar və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq diləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizə bütün qəlbimlə ölkənizin daha da sürətlə inkişaf etməsini və firavanlaşmasını, həmçinin rəhbərliyinizlə xalqınızın xeyirxah məqsəd və istəklərinə nail olmasını arzulayıram.

Qətiyyətlə inanıram ki, Qazaxıstan və Azərbaycan arasında yaradılmış möhkəm dostluq və əməkdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə səmərəli şəkildə möhkəmlənəcək və inkişaf edəcəkdir. Ümidvaram ki, aramızda yaranmış qarşılıqlı hörmət hələ uzun illər davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və böyük uğurlar, qardaş Azərbaycan xalqına sülh və xoşbəxtlik diləyirəm.

**Səmimi arzularla,**

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Sizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, ölkənizin suverenliyi və rifahı naminə gördüyünüz böyük işlərə görə ən dərin ehtiramımı bildirirəm.

Uzaqgörən və müdrik siyasətiniz nəticəsində Azərbaycan son illərdə əhəmiyyətli inkişaf yolu keçmiş, siyasi sabitlik, iqtisadi tərəqqi və beynəlxalq nüfuz baxımından mühüm nailiyyətlərə imza atmışdır. Xüsusilə, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər Azərbaycanın gücünü, eləcə də xalqınızın birliyini və iradəsini bütün dünyaya nümayiş etdirmişdir. Bu il həmin şanlı Qələbənin beşinci ildönümünün qeyd olunması Azərbaycanın müasir tarixinin parlaq səhifəsidir.

Sizin təşəbbüsünüzlə yaradılan Türk Mədəniyyəti və İrsi Fondu Türk dünyasının mədəni irsinin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi baxımından misilsiz platformaya çevrilmişdir. Təşkilatımız Zati-alinizin diqqət və qayğısını hər zaman hiss edir, bunu ortaq mədəni irsimizin inkişaf etdirilməsi yolunda göstərilən səylərə verilən mühüm dəstək kimi dəyərləndirir.

Sizi bir daha bu əlamətdar gün münasibətilə təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, Azərbaycanın inkişafı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, doğma Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu bayram suveren Azərbaycanın uğurlu sosial-iqtisadi inkişafının, çoxəsrlik zəngin tarixinin, ənənələrinin, nəsillərin qırılmaz əlaqəsinin rəmzidir.

Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası iqtisadiyyatın bütün sahələrində inamla irəliləyir, regional və dünya gündəminin aktual məsələlərinin həllində mühüm rol oynayır.

Avrasiya İqtisadi Komissiyası adından və şəxsən öz adımdan Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası***
***Kollegiyasının sədri***

# Prezident İlham Əliyevin Ukraynanın xarici işlər naziri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Ukraynanın xarici işlər naziri Andrey Sibiqanı qəbul edib.**

Andrey Sibiqa Ukrayna Prezidenti Volodimir Zelenskinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan dövləti tərəfindən Ukraynaya göstərilən humanitar yardımlara görə təşəkkürlərini bildirdi, xüsusilə İrpen şəhərində həyata keçirilən layihələrin əhəmiyyətini vurğuladı.

Andrey Sibiqa Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını ifadə etdi. Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Volodimir Zelenskiyə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycan tərəfindən Ukraynaya humanitar yardımın bundan sonra da davam etdiriləcəyini bildirdi.

Söhbət zamanı Azərbaycanın və Ukraynanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri qeyd olundu.

Ölkələrimiz arasında energetika, bərpaolunan enerji, nəqliyyat, ticarət, kənd təsərrüfatı sahələrində əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanın dövlət başçısı Misir Senatı sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeqi qəbul edib. Qonaq Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.**

Abdel Vahab Abdel Razeq vurğuladı ki, Misir Prezidenti dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırlayır.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Senatın sədri Azərbaycanla Misir arasında əlaqələrin tarixi və dostluq xarakteri daşıdığını deyərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiklərini qeyd etdi.

Dövlətimizin başçısı İlham Əliyev Prezident Əbdülfəttah əs-Sisinin Azərbaycana, özünün isə Misirə səfərini, bu səfərlər çərçivəsində Misir Prezidenti ilə görüşlərini və apardığı müzakirələri məmnunluqla xatırladı.

Görüşdə əlaqələrimizin inkişafında iki ölkənin qanunverici orqanlarının əməkdaşlığının və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin mühüm rola malik olduğu vurğulandı.

Söhbət zamanı Azərbaycanla Misir arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

**Əlahəzrət!**

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

## Gürcüstanın Prezidenti Zati-aliləri cənab Mixeil Kavelaşviliyə

**Hörmətli cənab Prezident!**

26 May – Müstəqillik Günü münasibətilə Sizə və dost Gürcüstan xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan və Gürcüstanı əsrlər boyu mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma şəraitində yaşayan xalqlarımızın iradəsindən qaynaqlanan möhkəm münasibətlər birləşdirir. Sağlam təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın bugünkü səviyyəsi bizi sevindirir.

Etibarlı strateji tərəfdaş olan ölkələrimizin energetika sahəsində əməkdaşlığı, birgə reallaşdırdığımız layihələr həm xalqlarımız, həm də daha geniş coğrafiya üçün xüsusi əhəmiyyət kəsb edərək bu gün bir çox ölkənin enerji təhlükəsizliyinin əsasını təşkil edir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi genişdir. Fəal siyasi dialoqumuz iqtisadi-ticari, enerji, nəqliyyat, sərmayə qoyuluşu, humanitar və digər sahələrdə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsi üçün yaxşı zəmin yaratmışdır.

Sizin bu yaxınlarda Azərbaycana rəsmi səfəriniz çərçivəsində səmimiyyət və qarşılıqlı anlaşma şəraitində keçən görüşümüzü və apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, bir-birinə qırılmaz tellərlə bağlı olan ölkələrimizin və xalqlarımızın firavanlığı, regionumuzun təhlükəsizliyi və rifahı naminə Azərbaycan–Gürcüstan ənənəvi dostluğu və strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə dərinləşməyə və möhkəmlənməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 may 2025-ci il**

## İndoneziya Respublikasının vitse-prezidenti Gibran Rakabuminq Rakadan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya 28 May Müstəqillik Günü münasibətilə təbrik

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. İndoneziya bu mühüm tarixi Azərbaycanla birgə qeyd edir və ölkənizin inkişafla bağlı əldə etdiyi nailiyyətləri, həmçinin regional və beynəlxalq sülhə töhfələrini yüksək qiymətləndirir.

İndoneziya və Azərbaycan qarşılıqlı hörmət, ortaq dəyərlər və konstruktiv dialoqa sadiqlik əsasında qurulan səmimi və inkişaf edən tərəfdaşlığa malikdir. Müxtəlif mədəni irslər və ümumi istəklərlə zənginləşən ölkələr kimi bir sıra sahələr üzrə əməkdaşlığımızı dərinləşdirmək və genişləndirmək üçün böyük potensial mövcuddur. Əminəm ki, ölkələrimiz arasında dostluq və həmrəylik gələcək illərdə də inkişaf edəcəkdir.

Sizə uğurlar və rifah, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzu edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Gibran Rakabuminq RAKA,***
***İndoneziya Respublikasının vitse-prezidenti***

# “İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi “İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda salamlayıram.

Bugünkü konfrans BMT tərəfindən “İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü”nün təsis olunmasının üçüncü ildönümünə həsr olunub. Ölkəmizdə artıq ənənəvi olaraq təşkil edilən bu vacib tədbir bəşəriyyəti narahat edən islamofobiya probleminə diqqətin artırılmasına xidmət edir.

Azərbaycan islamofobiya ilə mübarizəyə dair BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş qətnamələri alqışlayır və sənədlərdə qeyd olunan tədbirlərin təxirəsalınmaz qaydada həyata keçirilməsinə çağırış edir.

Təəssüflər olsun ki, islamofobiya son dövrdə qlobal müstəvidə daha qabarıq və sistematik xarakter almağa başlamışdır. Hazırda bu mənfi tendensiya hər hansı konkret ölkədə deyil, dünyanın bir çox yerlərində müşahidə olunur. İslama qarşı düşmənçilik, müsəlmanlara qarşı nifrət və dözümsüzlük, anti-islam əhvali-ruhiyyəsi getdikcə böyük vüsət almağa başlayır və daha da kəskinləşir.

İslamofobiya müxtəlif formalarda, o cümlədən gündəlik həyatda müsəlmanlara qarşı irqçilik və ayrı-seçkilik, nifrət nitqi, fiziki hücumlar, media və sosial media platformalarında stiqmatizasiya, institusional diskriminasiya və digər formalarda təzahür edir. Bu cür ədalətsiz və qərəzli münasibət müsəlmanların cəmiyyətə inteqrasiya olunmalarına və özlərini onun bərabərhüquqlu üzvü kimi hiss etmələrinə böyük maneə yaradır.

Vaxtilə qul ticarəti ilə məşğul olan, işğalçılıq və müstəmləkəçilik siyasəti yürüdən, soyqırımları törədən, indi isə özlərini insan hüquqlarının keşiyində duran demokratik ölkələr qismində təqdim edən bəzi ölkələrdə bu gün islamofobiya bir növ dövlət siyasətinə çevrilmişdir. Bu ölkələrdə dünyəvi dəyərlərin müdafiəsi adı altında müsəlmanların hüquqlarını və etiqad azadlığını məhdudlaşdıran qanunlar qəbul edilir, onların təhsil almaq, mənzilə sahib olmaq, işlə təmin olunmaq və digər hüquqları tapdalanır.

Eyni zamanda, Məhəmməd Peyğəmbəri (s.ə.s) təhqir edən hərəkətlər, müqəddəs Qurani-Kərimin yandırılması, məscidlərə və ibadət yerlərinə qarşı hücumlar, müsəlman qəbiristanlıqlarının vandalizmə məruz qalması və digər hərəkətlər müsəlmanların hisslərini təhqir etməyə yönəlmiş və sayı getdikcə artan anti-müsəlman hadisələri sırasındadır. “Söz azadlığı” adı altında İslam dininə və müsəlmanlara qarşı hücumlar qəbuledilməzdir.

Məyusedici haldır ki, islamofobiya kimi ümumbəşəri bəlaya və təhlükəyə qarşı nəinki mübarizə aparılmır, hətta bir sıra ölkələrdə onun yayılması təşviq edilir. İslam dinini və müsəlmanları Qərb kimliyinə və dəyərlərinə təhdid kimi göstərərək insanların hisslərini və düşüncələrini yönəltməyə çalışan radikal cərəyanların və ifrat sağçı partiyaların pərəstişkarlarının sayı getdikcə artır, onların nümayəndələri parlamentlərdə daha çox yer qazanmağa başlayırlar. Eyni zamanda, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar qərəz və ikili standartlara üstünlük verərək anti-müsəlman əhvali-ruhiyyəsini təlqin edirlər.

İslamofobiyanın yayılmasına təkan verən digər faktorlardan biri də ictimai rəyin formalaşdırılmasında və müsəlmanların mənfi obrazının yaradılmasında dağıdıcı rolu olan bəzi media orqanlarının fəaliyyətidir. Bu media qurumları məqsədyönlü şəkildə ekstremizm, terrorizm və bu kimi anlayışları İslamla eyniləşdirərək dinimizə qarşı qərəzli təsəvvür yaradır, dinimizi təhlükə mənbəyi kimi aşılayır və ona terror damğası vurmağa çalışırlar. Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında mövcud problemləri İslam və müsəlmanlarla əlaqələndirərək cəmiyyətdə etimadsızlıq və qorxu hisslərini alovlandırırlar.

Azərbaycan islamofobiya ilə üzləşmiş və bu gün də ondan əziyyət çəkən ölkələrdən biridir. Torpaqlarımızın otuzillik işğalı dövründə xalqımıza qarşı Xocalı soyqırımı törədilmiş, etnik təmizləmə aparılmış və bunun nəticəsi olaraq bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə salınmışdır. Ərazilərimizdə milyona yaxın mina basdırılmış, urbisid, kultursid və ekosid cinayətləri törədilmişdir. Ancaq, əfsuslar olsun ki, Qərbdə bəzi dairələr sırf dini təəssübkeşlik və islamofob mövqedən çıxış edərək Ermənistan tərəfindən torpaqlarımızın işğalına göz yummuş, münaqişənin əsl mahiyyətini təhrif etmiş, onu dini zəmində münaqişə kimi təqdim etməyə çalışmışlar.

İşğal dövründə bəşəri əhəmiyyətə malik çoxəsrlik tarixi-mədəni abidələrimiz, o cümlədən İslam dininə aid abidələr, ziyarətgahlar, məscidlər, türbələr, məzarlıqlar dağıdılmış, təhqir edilmiş, yerlə-yeksan edilmişdir. Bir sıra mədəni irs obyektləri qarət edilmiş, onların təyinatı dəyişdirilmiş, mənsubiyyəti saxtalaşdırılmışdır. Hazırda işğaldan azad olunmuş torpaqlarımızda aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dağıdılmış məscidlərimiz və dini abidələrimiz bərpa edilir, yeniləri inşa edilir.

Əfsuslar olsun ki, soydaşlarımızın qovulduğu və tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda da xalqımızın zəngin maddi-mənəvi irsini şüurlu və planlı şəkildə tamamilə məhv etmək və ya saxtalaşdırmaq, azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini yox etmək siyasəti aparılır.

Bir neçə gün əvvəl Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının iclasında İrəvan qazılığının fəaliyyətinin bərpası barədə qərarın qəbul edilməsi tarixi ədalətin təmin olunması, Qərbi Azərbaycanda yerləşən mədəni və dini-mənəvi irsimizin məhv edilməsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılan vacib addımdır.

Məhdud sayda monoetnik ölkə istisna olmaqla, dünya ölkələrinin əksəriyyəti çoxmillətli və çoxkonfessiyalı cəmiyyətlərdən ibarətdir. Bunu nəzərə alaraq müxtəlif millətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin qarşılıqlı dialoq və anlaşma şəraitində yaşaması ölkədə vətəndaş sülhü və vətəndaş həmrəyliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bu sahədə müsbət təcrübəsi bir sıra ölkələr üçün örnək ola bilər.

İslam dünyasının ayrılmaz parçası olan Azərbaycan müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələrinin tarix boyu qardaşlıq və dostluq şəraitində yaşadığı ölkədir. Bu cür nümunəvi münasibətlərin təşəkkülündə və inkişafında ümumbəşəri dəyərlərin daşıyıcısı kimi İslam dini müstəsna rol oynamışdır. Azərbaycan xalqı bu gün də özünün zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, İslam həmrəyliyinə öz töhfələrini verir, İslam dəyərlərinin dünyada təbliği istiqamətində ciddi addımlar atır.

İslam sülh, həmrəylik və mərhəmət dinidir. Ona qarşı aparılan qarayaxma kampaniyalarına baxmayaraq, İslam yüksək əxlaqi dəyərləri, ədaləti, xeyirxahlığı təcəssüm etdirən və milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan din olaraq qalmağa davam edir.

Hazırkı qlobal çağırışlar və böhranlar, İslam dünyasının üzləşdiyi yeni sınaqlar və çətinliklər, habelə islamofobiya meyillərinin artması, dinimizi gözdən salmaq cəhdləri müsəlman ölkələri arasında həmrəyliyin və birliyin möhkəmləndirilməsini, qarşılıqlı dəstəyin göstərilməsini olduqca labüd edir. Bütün müsəlman dünyasını narahat edən islamofobiya ilə mübarizə aparmaq üçün vahid cəbhədən çıxış etmək, bu ədalətsizliyə və zərərli təmayüllərə etiraz səsimizi birgə ucaltmaq lazımdır.

Konfransın işinə uğurlar diləyir və onun islamofobiya ilə mübarizəyə, İslam dini ilə bağlı qərəzin aşkara çıxarılması və stiqmaların dağıdılması işinə dəyərli töhfə verəcəyinə dair əminliyimi ifadə edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2025-ci il**

# Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**(əvvəli 1-ci səhifədə)**

**1.** Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

1.1. Abbasov Dəyanət Allahverdi oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 29 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.2. Abbasov Eldar Ələddin oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 28 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.3. Abbasov Hüseyn Atəf oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2022-ci il 26 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.4. Abbasov Natiq Əşrəf oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 28 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.5. Abbasov Sabir İsrafil oğlu, 1951-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tovuz Rayon Məhkəməsinin 2022-ci il 8 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.6. Abdolvand Ali Papi, 1971-ci ildə anadan olmuş, İran İslam Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 28 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.7. Abdullayev Abuzər Səfər oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Zərdab Rayon Məhkəməsinin 2023-cü il 7 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.8. Agaev Murad, 1985-ci ildə anadan olmuş, Rusiya Federasiyasının vətəndaşı, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 29 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.9. Ağamirov Elbrus Mircəlal oğlu, 1961-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 24 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.10. Ağamməddov Arif Teymur oğlu, 1969-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Rayon Məhkəməsinin 2022-ci il 16 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.11. Ağarzayev Fazil Azad oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Xaçmaz Rayon Məhkəməsinin 2021-ci il 17 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.12. Ağayev Elvin Səxavət oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 13 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.13. Akifzadə Samir Ələkbər oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2021-ci il 23 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.14. Akmad Kaleem Khan Ahmad, 1967-ci ildə anadan olmuş, Pakistan İslam Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 31 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.15. Alxasov Maarif Qazəhməd oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 15 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.16. Allahverdiyev Mətləb Yaqub oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 21 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.17. Aslanzadə Rəşid Asif oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gədəbəy Rayon Məhkəməsinin 2021-ci il 16 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.18. Babayev Arif Sabir oğlu, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Qəbələ Rayon Məhkəməsinin 2022-ci il 23 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.19. Babayev Elnur Mayıl oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2021-ci il 27 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.20. Bağırov Bayram Daşdəmir oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Şəhər Məhkəməsinin 2022-ci il 6 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.21. Bağırov Namiq Namət oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2021-ci il 29 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.22. Bayramov Natiq Vəli oğlu, 1972-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2021-ci il 21 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.23. Bayramov Rüfət Fərman oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2023-cü il 6 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.24. Behrouzi Bostanabad Mohammadreza Aboulfazl, 1975-ci ildə anadan olmuş, İran İslam Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2022-ci il 22 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.25. Bəhlulov Sadıq Rafiq oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2022-ci il 1 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.26. Bəşirov Fəxrəddin Asif oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 6 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.27. Binyətov Fikrət Eynət oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şamaxı Rayon Məhkəməsinin 2022-ci il 28 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.28. Cavadov Vüqar Firuddin oğlu, 1976-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2023-cü il 11 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.29. Cavanşirov Hidayət İdris oğlu, 1956-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2023-cü il 3 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.30. Cəfərli Toğrul Fizuli oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Apellyasiya Məhkəməsinin 2022-ci il 21 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.31. Cəfərov Afiq Saleh oğlu, 1971-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2022-ci il 19 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.32. Cəfərov Elvin Namiq oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2023-cü il 27 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.33. Cəfərov Murad Əsgər oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2021-ci il 29 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.34. Cəfərov Murad Taleh oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2023-cü il 7 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.35. Cəfərov Rəhman Yaqub oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 28 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.36. Cəfərova Raminə Elbrus qızı, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2021-ci il 23 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.37. Cəlilov Məmmədkərim Ağamöhsüm oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2023-cü il 31 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.38. Clerc Theo Hugo, 1986-cı ildə anadan olmuş, Fransa Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2024-cü il 10 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.39. Daşdəmirli Araz Ayaz oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Göygöl Rayon Məhkəməsinin 2023-cü il 7 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.40. Eminov Əfqan Əsbən oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2022-ci il 2 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.41. Eminov Fərman Kazım oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 13 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.42. Eynullayev Xalid Xeyrulla oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2013-cü il 11 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.43. Əhədov İsmayıl Hicran oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2022-ci il 8 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.44. Əhmədov Arif Məmməd-Kərim oğlu, 1971-ci ildə anadan olmuş, Rusiya Federasiyasının vətəndaşı, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin 2023-cü il 28 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.45. Əkbərov Məzahir Ədalət oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Masallı Rayon Məhkəməsinin 2023-cü il 28 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.46. Ələkbərov Ələkbər Rafiq oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəmkir Rayon Məhkəməsinin 2023-cü il 15 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.47. Ələsgərov Elvin Elşən oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Samux Rayon Məhkəməsinin 2023-cü il 31 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.48. Əlixanov Sərxan Bəhram oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Quba Rayon Məhkəməsinin 2022-ci il 1 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.49. Əliyev Aqşin Qasım oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2021-ci il 17 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.50. Əliyev Baba Məmməd oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 14 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.51. Əliyev Cəlal Elbrus oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2024-cü il 2 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.52. Əliyev Elvin Gündüz oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 5 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.53. Əliyev İltifat Rəfi oğlu, 1958-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2022-ci il 26 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.54. Əliyev Mail Məhərrəm oğlu, 1955-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2022-ci il 8 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.55. Əliyev Murad Qorxmaz oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2022-ci il 24 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

“Artıq islamofobiyaya qarşı konkret strategiyalar formalaşdırmalı və tədbirlər görməliyik. Müsəlmanlara qarşı təhqir və ayrı-seçkilik məqsədilə kifayət qədər vəsait xərclənir. İslamofobiya ilə bağlı, sadəcə, təriflər vermək kifayət deyil. Bu, real və neqativ bir fenomendir və ona qarşı əməli tədbirlər görülməlidir”, – deyə Anna Stamou qeyd edib.

İclas müzakirələrlə davam edib.

**(ardı 8-ci səhifədə)**

# “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfrans



(əvvəli 7-ci səhifədə)

**Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasovun moderatorluğu ilə keçirilən panel iclasda “Siyasətdə müsəlmanlara qarşı nifrət: hüquqi çərçivələr və vəkillik strategiyaları” mövzusu müzakirə edilib.**

ICESCO-nun Hüquqi işlər və beynəlxalq standartlar departamentinin direktoru **Məhəmməd Hedi Şili** islamofobiyaya qarşı mübarizə yollarının müzakirə edilməsini olduqca vacib və aktual mövzu olaraq qiymətləndirib. O qeyd edib ki, müsəlmanlara qarşı düşmənçilik halları yeni bir məsələ deyil, lakin son illərdə bu halların intensivliyində ciddi artım müşahidə olunur. İslamofobiya yalnız fərdi səviyyədə deyil, sistemli formada - media, mədəniyyət, təhsil və əmək sahələrində də təzahür edir. Araşdırmalar göstərir ki, müsəlmanların 39 faizi ümumi diskriminasiyaya məruz qaldığını bildirib. 35 faiz müsəlman iş mühitində, 35 faiz isə yaşayış sahəsi tapmaqda ayrı-seçkiliklə üzləşib. Daha da narahatedici fakt odur ki, hicablı qadınların 45 faizi vəzifələrə qəbulda ayrı-seçkiliklə üzləşir. Təhsil sahəsində isə 35 faiz müsəlman dini kimliyinə görə diskriminasiya gördüyünü deyir.

İƏT-in Baş katibinin xüsusi elçisi **Mehmet Paçacı** islamofobiyanın artıq sistematik yanaşmaya çevrildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, nifrətə əsaslanan fikirlər və qərəzli münasibətlər cəmiyyətlərdə vəhdətin və birgəyaşayışın pozulmasına səbəb olur. Bəzi Qərb ölkələrində müsəlman qadınlara, xüsusilə hicablı xanımlara qarşı münasibət ayrı-seçkiliyin daha da dərinləşdiyini göstərir.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru **Mahmut Erol Kılıç** qeyd edib ki, islamofobiya artıq, sadəcə, fərdi nifrət və ya qərəzli münasibət deyil. Biz ondan ideoloji və siyasi məqsədlər üçün istifadə olunduğunu müşahidə edirik. Təəssüf ki, bəzi hallarda seçki kampaniyalarında, beynəlxalq böhranlar zamanı, xüsusilə də terror hadisələrindən sonra islamofobiya alətə çevrilir. Bəzi dairələr islamofobiyadan ictimai dəstək toplamaq üçün istifadə edir.

G20 Dinlərarası Forumunun baş hüquqşünası, “Covington vs Burling LLP” şirkətinin müşaviri **Timoti P.Stratford** qeyd edib ki, bu cür ayrı-seçkiliklə mübarizə aparmaq üçün bir sıra yollar mövcuddur. Lakin əsas mübarizə üsulu maarifləndirmədir.

“İslamofobiya çox zaman yanlış məlumatlardan və stereotiplərdən qaynaqlanır. Bu səbəbdən maarifləndirici tədbirlər, ictimai məlumatlandırma kampaniyaları, təhsil proqramları və media vasitəsilə aparılan obyektiv təqdimatlar cəmiyyətin yanlış təsəvvürlərini aradan qaldırmaqda əsas rol oynaya bilər. Ancaq təkcə maarifləndirmə kifayət deyil. Hüquqi yanaşma da bu mübarizənin vacib sütunlarından biridir”, - deyə Timoti P.Stratford bildirib.

Beynəlxalq insan hüquqları üzrə professor, “Qlobal islamofobiya ilə mübarizə” layihəsinin direktoru **Əhməd Şahidin** sözlərinə görə, islamofobiya ilə mübarizədə hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi, maarifləndirmə, mədəniyyətlərarası dialoq və həmrəylik əsas istiqamətlərdir. Stereotiplər və qərəz çox zaman cahillikdən yaranır.

Mərakeş Beynəlxalq Münasibətlər İnstitutunun prezidenti **Kerdoudi Cavad** isə son illər bir çox ölkədə müsəlmanların siyasi ritorikada mənfi stereotiplərlə hədəfə alındığını bildirib.

O qeyd edib ki, bu kontekstdə hüquqi çərçivənin gücləndirilməsi vacibdir. İnsan hüquqları haqqında beynəlxalq konvensiyalar islamofobik ifadələrin və siyasətin qarşısını almaq üçün mühüm hüquqi əsaslar yaradır. Qanunvericilik sənədlərində nifrət nitqinin cinayət kimi tanınması və ayrı-seçkiliyin qarşısını alan mexanizmlər daha səmərəli tətbiq olunmalıdır.

İclas müzakirələrlə davam edib.

*

**“TRT World” Tədqiqat Mərkəzinin direktoru, “TRT World” Forumunun meməarı Tarek Çərkəvinin moderatorluğu ilə keçirilən panel iclasda “İslamofobiya media və rəqəmsal məkanlarda: Süni intellekt sistemləri islamofob qərəzi necə yaya və gücləndirə bilər” mövzusu müzakirə edilib.**



Qətər Hökumət Media Mərkəzinin direktoru **Eyman Əl-Kaabi** süni intellektin alqoritmlər əsasında işləyən sistem olduğuna diqqət çəkib. Onun sözlərinə görə, bu, bəzən insanlardakı qərəzləri təkrar edir və daha geniş şəkildə yayır. Əgər bir model islamofob məzmunla öyrədilibsə, o zaman bu qərəzli informasiyanı sosial mediada, axtarış nəticələrində və hətta hüquq-mühafizə sistemlərində təkrar istehsal edə bilər. Müsəlman adları ilə bağlı axtarışlarda mənfi nəticələrin önə çıxması və ya avtomatik filtrlərdə müsəlman geyimi və simvollarının “şübhəli” kimi işarələnməsi artıq qeydə alınmış hallardır. Bu hallar süni intellektin neytral deyil, insan qərəzlərindən təsirləndiyini sübut edir.

İƏT Xəbər Agentlikləri Birliyinin Media müşaviri və məsləhətçisi **Alzubir Al-Ansari** qeyd edib ki, Azərbaycanda multikulturalizm təkcə rəsmi konsepsiya deyil, həm də real həyatın bir parçasıdır. Dinindən, milliyyətindən asılı olmayaraq hər bir insan cəmiyyətin ayrılmaz hissəsi kimi qəbul olunur. Bu model təkcə regionda deyil, bütün dünyada təqdirəlayiq nümunə ola bilər. Onun sözlərinə görə, Fransada bunun tam əksi müşahidə edilir. Orada islamofobiya təkcə sosial münasibətlər səviyyəsində deyil, həm də siyasi ritorikada və qərar qəbuletmə proseslərində özünü göstərir.

AnewZ TV-nin icraçı direktoru **Rüfət Həmzəyev** vurğulayıb ki, müasir dövrdə informasiya texnologiyaları və süni intellekt sistemləri informasiya yayımında mühüm rol oynayır. Təəssüf ki, bu texnologiyalar bəzən insan hüquqlarına və dini dözümlülüyə qarşı təhlükəyə çevrilir.

Onun sözlərinə görə, süni intellekt sistemləri müəyyən dairələrin hazırladığı qərəzli və nifrət dolu çıxışları təkrar istehsal edir və geniş auditoriyaya yayır. Sosial şəbəkələrdə islamofobiya ilə zəngin paylaşımlar artıq adi hala çevrilib. Bu isə cəmiyyətlər arasında parçalanmanı dərinləşdirir, nifrət nitqini və dezinformasiyanı təşviq edir.

Əl-Cəzirə Araşdırmalar Mərkəzinin direktoru **Məhəmməd Muxtar Əl-Xəlil** bildirib ki, süni intellekt, təbii ki, obyektiv və ədalətli olmalıdır. Ancaq təəssüf ki, reallıqda belə deyil. Bu sahədə qərəzli hallara rast gəlirik. Müsəlman sözü tez-tez “terror”, “şiddət” və digər neqativ anlayışlarla əlaqələndirilir. Alqoritmlərin qurulmasında istifadə olunan dini məlumatlar çox zaman islamofobik təsəvvürlərə əsaslanır. Bu da nəticədə, müsəlmanlara qarşı yanlış və zərərli fikirlərin yaranmasına səbəb olur.

Fransız jurnalist, geopolitoloq **Jan-Mişel Brun** isə İslam anlayışının bəzən yanlış şəkildə terrorçuluqla əlaqələndirildiyinə diqqət çəkib. O qeyd edib ki, bu, cəmiyyətdə İslama qarşı qorxu və şübhə yaradır. “Müsəlmanlar hazırda Fransada say baxımından beşinci əhali qrupudur. Azlıq onların səsinin eşidilməməsinə səbəb olur. Təəssüf ki, fransız müsəlmanlarının müdafiə etmək üçün göstərilən səylər tez-tez nəticəsiz qalır, çünki ictimai fikirdəki qərəz dərin kök salıb. Bu vəziyyəti dəyişmək üçün bizə güclü və obyektiv media lazımdır”, - deyə fransız jurnalist əlavə edib.

İclas müzakirələrlə davam edib.

*

**Səudiyyə Ərəbistanının İran Araşdırmaları Beynəlxalq İnstitutunun rəhbəri Məhəmməd Əl Sulaminin moderatorluğu ilə keçirilən panel sessiyada islamofobiyanın tarixi və müasir təzahür formaları, onun siyasi, dini və ictimai təsirləri müzakirə edilib.**

İclasda çıxış edən “Multi-Faith Neighbours Network”un həmtəsisçisi, “Institute for Global Engagement”in prezidenti **Bob Roberts** deyib ki, islamofobiya təkcə müsəlmanlar üçün deyil, həm də xristianlar üçün zərərlidir, çünki bu, insanların inancını sarsıdır. Onun sözlərinə görə, hazırda başəriyyət hər 80-100 ildən bir yaşanan tarixi dönüş nöqtələrindən birindədir.

Vatikanın Dinlərarası Dialoq Dikasteriyasının Dini Münasibətlər Komissiyasının sabiq katibi **Xalid Akaşeh** qeyd edib ki, bu gün biz islamofobiyaya qarşı mübarizə aparırıq, qərəzi ifşa etməyə çalışırıq. Müsəlmanlarla dialoqa daim açıq olduqlarını deyən Xalid Akaşeh bildirib: “Müsəlman dostlarımız bizə daim sevgi və diqqətlə yanaşıblar. Bu tədbirin təşkilatçılarına təşəkkür edirəm. Biz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə hazırıq”.

Milli Məclisin deputatı **Tural Gəncəliyevin** fikrincə, dünyanın müxtəlif bölgələrində islamofobiyanı təbliğ edən şəxslərin fəaliyyəti ciddi narahatlıq doğurur. Xüsusilə Avropada və digər Qərb ölkələrində cəmiyyətlərə, yerli əhaliyə İslama və müsəlmanlara qarşı tədricən nifrət aşılamağa yönəlmiş meyillərin artdığını müşahidə edirik. İslamofobiya müsəlmanlara qarşı yönəlmiş qərəz və nifrət formasıdır.

Birləşmiş Ərəb Əmirliklərinin İnsan Qardaşlığının Ali Komitəsinin müşaviri **Herizal Həzrin** sözlərinə görə, bir araya gələrək birgə yaşayışın əhəmiyyətini və onun başəriyyət üçün nə qədər vacib olduğunu müzakirə etmək çox önəmlidir.

“Bu, sadəcə, mənəvi arqument deyil, hazırda yaşadığımız və mövcud olan sistematik problemdir. Bu səbəbdən ona qarşı mübarizə də sistemli olmalıdır”, - deyə müşavir qeyd edib.

Fransız və Ərəb Dilçilik və Etimoloji Araşdırmalar Cəmiyyətinin prezidenti, Orient XXI Qrupunun rəhbəri **Roland Laffitte** çıxış edərək deyib ki, islamofobiya termini bəzi dairələrdə çaşqınlığa qarşılanır, çünki tənqid və nifrət arasındakı hüquqi fərq bilərəkdən nəzərdən qaçırılır. O qeyd edib ki, əslində, islamofobiya yalnız dinə deyil, müsəlmanlara və İslam mədəniyyətinə qarşı nifrəti də əhatə edir.

Misir Xarici İşlər Nazirliyinin təqaüddə olan səfiri **Badurrahman Slahəddin** isə bildirib ki, dini dialoq maarifləndirici olsa da, birgəyaşayış üçün ən ideal üsul deyil. Onun fikrincə, mədəniyyət əsas körpü rolunu oynamalı və digər dinlərin nümayəndələrinə qarşı təhqiramiz ifadələrdən imtina edilməlidir.

İclas müzakirələrlə davam edib.

*XQ*

## “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncam uğurla icra edilib

**“Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 may tarixli Sərəncamı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının nümayəndələrinin, Milli Məclisin deputatlarının, Əfv Məsələləri Komissiyasının üzvlərinin, hüquq müdafiəçilərinin, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın, vətəndaş cəmiyyəti və media təmsilçilərinin iştirakı ilə Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin tabeliyindəki müxtəlif rejimli cəzaçəkmə müəssisələrində, habelə alternativ cəzaların icrasını təmin edən Ədliyyə Nazirliyinin Probasiya xidmətinin yerli qurumlarında uğurla həyata keçirilib.**





Sərəncamın icrası zamanı çıxış edənlər əfv institutunun təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini bildiriblər. Diqqətə çatdırılıb ki, indiyədək 71 əfv sərəncamına əsasən 10 min şəxs əfv olunub. Çıxışçılar Azərbaycanda humanist dəyərlərin hər zaman önə çəkildiyini, 28 May – Müstəqillik Günü ərəfəsində atılan bu addımın humanizm siyasətinin növbəti bariz nümunəsi olduğunu qeyd ediblər. Natiqlər əfv olunanları humanist aksiyanı layiqincə qiymətləndirməyə, azadlıqlarının dəyərini bilməyə çağırıblar.

Qeyd edək ki, bu gün imzalanan əfv sərəncamı 200-dən artıq şəxsə şamil olunub. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 25 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş və cəzası şərti tətbiq edilmiş 1 nəfər, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzalarının çəkilməsi təxirə salınmış 2 nəfər cəzadan azad edilib. Bundan başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, islah işləri cəzasına məhkum edilmiş 4 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 1 nəfər cəzadan azad olunub.

*XQ*

## Daimi seçici siyahıları dəqiqləşdirilib

**Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən hər il yanvarın əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilərək dəqiqləşdirilməsinə başlanılır. Siyahılar qanunvericiliyin tələblərinə uyğun olaraq ilk növbədə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik seçicilər barədə təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunur və Mərkəzi Seçki Komissiyasına təqdim edilir.**

Ardıcıl və sistemli şəkildə müvafiq işlər görüldükdən sonra siyahılar aşağı seçki komissiyaları tərəfindən təsdiqlənir, dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə olunmaqla ictimailəşdirilir. Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, yerli icra strukturları, bələdiyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində reallaşdırılan və aşağı seçki komissiyalarının otuz səkkiz mindən artıq üzvü cəlb olunan dəqiqləşdirmə prosesinə mayın 30-dək yekun vurulur.

2025-ci il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinin başa çatması ilə əlaqədar mayın 26-da Komissiyanın inzibati binasında öncə dəqiqləşdirmə prosesinin texniki və praktiki mexanizmlərinə həsr olunan təqdimat mərasimi keçirilib. Mərkəzi Seçki Komissiyasının üzvləri və media mənsublarının iştirakı ilə əyani şəkildə reallaşdırılan tədbirdə seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsində dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlar, daha da təkmilləşdirilən proqram təminatları, o cümlədən operativ və keyfiyyətli fəaliyyəti təmin edən xüsusi proqram modulları barədə ətraflı məlumat verilib.

Təqdimat mərasiminin ardınca Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. İclasda 2025-ci ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi məsələsinə baxılıb. Komissiya sədri təqribən beş ayı əhatə edən irimiqyaslı fəaliyyətin başlıca mərhələləri barədə danışıb, mühüm məqamların diqqətə çatdırıb. M.Pənahov, həmçinin dəqiqləşdirmə prosesinə yaxından köməklik göstərən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti qurumlara təşəkkürünü bildirib.

İclasda 2025-ci ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün müvafiq dairə seçki komissiyalarına göndərilməsi, Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq olunduqdan sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsi qərara alınıb. Qeyd etmək lazımdır ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6302093 seçici daxil edilib ki, onların 47,57 faizi kişi, 52,43 faizi isə qadınlardır.

İclasda komissiyanın 2025-ci il mayın 22-də keçirilən iclasının protokolu da təsdiq olunub, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

*XQ*

# Azərbaycan–Aİ münasibətlərində yeni mərhələ

**(əvvəli 1-ci səhifədə)**

Prezidentin köməkçisinin Belçikanın paytaxtındakı görüşlərinin davamı olaraq Aİ-nin aparıcı qurumlarının nümayəndələri ilə apardığı müzakirələr göstərir ki, Azərbaycan bu konsensusu bəyanat səviyyəsində saxlamır, onu praktiki mexanizmlərlə möhkəmləndirməkdə maraqlıdır. Məhz bu addım ölkənin xarici siyasətində davamlılıq prinsipinin uğurla tətbiq olunduğuna dəlalət edir. Diplomatik ardıcıllığın mühüm göstəricilərindən biri əməkdaşlığın yalnız iqtisadi və enerji sektoru ilə məhdudlaşmamasıdır. Azərbaycan bu əlaqələri regional və beynəlxalq təhlükəsizlik, insan hüquqları, hüquqi dialoq və



sosial dayanıqlılıq sahələrinə qədər genişləndirərək, Aİ ilə strateji əlaqələri çoxşaxəli platformaya daşımaqdadır. Azərbaycanın münasibətlərə geniş aspektdə yanaşması onu xarici siyasətinin klassik enerji diplomatiyasından post-neft dövrünə uyğun daha kompleks və çevik modelə keçidini göstərir. Burada institusional diplomatiya konsepti önə çıxır: yəni münasibətlərin təkcə liderlər səviyyəsində deyil, həm də müntəzəm mexanizmlər və daimi dialoq platformaları üzərindən qurulması. Məhz bu institutlaşma uzunmüddətli tərəfdaşlıq üçün münbit zəmin yaradır.



Aİ üçün Azərbaycan həm enerji təhlükəsizliyi baxımından, həm də regional sabitliyin təminində güvənə biləcəyi əsas oyunçulardan biridir. Rusiya–Ukrayna müharibəsindən sonra Avropanın enerji mənbələrini şaxələndirməyə yönəlmiş səyləri fonunda Azərbaycan strateji alternativ kimi ön plana çıxdı. Amma bu zaman əməkdaşlıq yalnız enerji təchizatı məsələsinə də söykənmir. Burada qarşılıqlı etimad, sabit xarici siyasət və regional təşəbbüslərdə aktiv iştirak həlledici rol oynayır.

Reallıq ondan ibarətdir ki, Azərbaycan bu mərhələdə özünü etibarlı tərəfdaş və regional inteqrasiyanı dəstəkləyən dövlət kimi təqdim edir. Onun addımları Aİ-nin maraqlarına uyğun davranış strategiyası və ölkənin geosiyasi mövqeyini gücləndirən məqsədyönlü diplomatiyanın nəticəsidir.

Sonda onu da qeyd etmək olar ki, diplomatik ardıcıllıq və Tiranada əldə olunmuş konsensusun Brüsseldə davam etdirilməsi Azərbaycan diplomatiyasının proaktiv və strateji yönümlü xarakter daşıdığını nümayiş etdirir. Bu yanaşma formal görüşlərdən daha çox real nəticələrə yönəlmiş və qarşılıqlı maraqlara əsaslanan institusional əməkdaşlıq modelidir. Bu baxımdan, Azərbaycanın Aİ ilə münasibətləri regional diplomatiyanın yeni mərhələsinə keçidi və strateji tərəfdaşlığın real məzmunla zənginləşdirilməsinin nümunəsi kimi çıxış edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Eçmiədzinin növbəti hoqqabazlığı

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, A.Paşazadə iclasda çıxışı zamanı bildirib ki, erməni dini dairələrinin soydaşlarımızın uyuduğu tarixi Azərbaycan torpağı Üçmüədzində – Eçmiədzin adlandırdıqları məkanda əyləşib onlara aidiyyəti olmayan ərazilərdə dini təmsilçiliklərini qurmaqla məşğul olduqları bir faktdır. Onun sözlərinə görə, Qarabağda “Artsax” yeparxiyası, Naxçıvanın adı ilə Rusiyada Novı Naxçıvan yeparxiyası təsis ediblər: “Xristianlıq tarixinə dair saxta mülahizələrlə özlərini əlahiddə icma – dünyada ilk xristianlar kimi təqdim edən hayların dini mərkəzinin yeganə məqsədi “böyük Ermənistan” kimi xəstə erməni xülyasına dəstək vermək olub. Min cür saxtakarlıqlarla başqa xalqların mədəni-mənəvi irsinə sahiblənən Eçmiədzində və Kilikiyada dini mərkəzləri vasitəsilə dünyaya yalan, iftira, qarayaxmalarla dolu müraciətlər yayan, xristian dininin sülh, qardaşlıq, dinc qonşuluq postulatlarından uzaq olan, daim nifaq, düşmənçilik təbliğ edən, xəstə təxəyyülləri naminə revanşizmə və qarşıdurmaya çağıran bir zehniyyətlə qarşı-qarşıyayıq. Erməni yalanlarına inanmaqda maraqlı olan dövlət və dairələr onlara bu işdə dəstək və yardım edirlər. Bəli, reallıq budur – dünya erməniliyi erməni milli kilsəsinə söykənərək tarixi-siyasi riyakarlıqları ilə beynəlxalq ictimaiyyəti aldatmaqda davam edirlər. Hədəfləri budur ki, erməni dövləti siyasi səriştəsizlik ucbatından əldən gedərsə, erməni milli kilsəsi səfərbəredici mərkəz missiyasını davam etdirsin, vatikansayağı qriqorian dini dövləti yaratsınlar və özləri rəhbərlik etsinlər. Beləliklə, erməni kilsəsi tarixi torpaqlarımızda varlığını bu və ya digər yolla davam etdirmək kimi məkrli niyyətdədir. Bu, Ermənistanla qonşu olan bütün region ölkələri üçün böyük təhlükə kəsb edir”.

Erməni kilsəsi isə öz xislətinə sadiq qalaraq QMİ-nin “Azərbaycan təbliğatının ruporu” rolunu oynadığı, dezinformasiya yaydığını, erməni xalqına və apostol kilsəsinə qarşı düşmənçilik və yalan axını yönləndirdiyini bildirib. İddia edilib ki, Ermənistanda və regionda çoxəsrlik erməni ziyarətgahları mövcuddur. O cümlədən 1700 illik (?) müqəddəs Eçmiədzin kilsəsi ermənilər tərəfindən zəbt edilən tarixi Azərbaycan torpaqlarında yerləşmir. Guya, azərbaycanlılar yalnız 1930-cu illərin ikinci yarısında SSRİ-nin milli siyasəti nəticəsində bu etnonimi alıblar. Əksinə, erməni xalqı isə minillik boyunca quruculuq tarixi, mənəvi-mədəni irsi ilə bütün dünyada tanınan (?) toplumdur.

Kilsə daha sonra A.Paşazadənin Novı Naxçıvan yeparxiyası ilə bağlı fikirlərinə öz aləmində aydınlıq gətirməyə çalışıb: “Qeyd etmək lazımdır ki, Rostov-Don yaxınlığındakı yaşayış məntəqələrinə çar Rusiyası hakimiyyət orqanlarının fərmanı ilə tarixən ermənilərin yaşadığı (?) Naxçıvan bölgəsindən köçən ermənilərə hörmət əlaməti olaraq Novı Naxçıvan adı verilib”.

*

Əlbəttə, kilsənin haqqında söhbət gedən bəyanatı açıq-aşkar qərəzli və ittiham tərzində yazılıb. Bəyanatın ruhu kilsənin neytral və ya dini deyil, daha çox siyasi və müdafiəçi mövqedə çıxış etdiyini göstərir. Kilsənin özünü sadəcə dini qurum yox, eyni zamanda, ictimai-siyasi proseslərə reaksiya verən bir tərəf kimi təqdim etməsi də diqqətdən yayınmır. Bu, Ermənistan cəmiyyətində kilsənin hələ də mühüm təsir gücünə sahib olduğunu göstərir. Bəyanatda qeyd olunanlar dini qarşıdurma təəssüratı yaradır. Bu da regionda təhlükəli bir tendensiyadır: siyasi münaqişənin kilsə tərəfindən dini çalarlarla dərinləşdirilməsi sülh yolunda olan iki xalq arasında barış prosesini çətinləşdirə bilər.

Kilsə, eyni zamanda, Ermənistanda və regionda “çoxəsrlik erməni ziyarətgahları”nın mövcud olduğunu iddia etməklə, öz tarixi varlığını və dini irsini önə çəkməyə çalışır. Belə fikirlər bir tərəfdən erməni cəmiyyətində milli-dini birliyi gücləndirməyi, digər tərəfdən isə Azərbaycanı, guya, bu irsə təhdid kimi təqdim etməyi hədəfləyir. Lakin məlumdur ki, Azərbaycanda yerləşən Alban xristian abidələrinin mənsubiyyəti süni şəkildə dəyişdirilərək erməni irsi kimi təqdim olunur və bu da dini-mədəni sahədə tarixi saxtakarlıq tendensiyasını dərinləşdirir. Ermənilərin bu cür ritorikası barışıqdan çox qarşıdurma ritorikasını gücləndirir.

Erməni apostol kilsəsinin bəyanatında səsləndirilən iddialardan biri də “1700 illik” Eçmiədzin kilsəsinin, guya, “ermənilər tərəfindən zəbt edilmiş Azərbaycan torpağında” yerləşmədiyi fikridir. Bu, tarixi faktların manipulyasiya edilməsinə bariz nümunədir. Halbuki, tarixi faktlar Eçmiədzin ətrafındakı ərazilərin uzun müddət azərbaycanlıların yaşadığı bölgələr olduğunu, XIX–XX əsrlərdə isə demoqrafik tərkibin süni şəkildə dəyişdirildiyini isbat edir.



Digər tərəfdən, bəyanatda azərbaycanlıların kimliyinin yalnız 1930-cu illərdə formalaşdığı iddia edilir. Bu, sovet dövrü etnik siyasətinə istinadən tarixi gerçəkləri təhrif etmək cəhdidir. “Azərbaycanlı” etnonimi sovet idarəçiliyi dövründə rəsmiləşsə də, xalqımızın tarixi, mədəniyyəti və dil varlığı əsrlər öncəyə gedib çıxır. Kilsənin bu cür iddiaları isə faktlara deyil, ideoloji məqsədlərə əsaslanır və regionda onsuz da kövrək olan münasibətlər sisteminə zərbə vurur.

Kilsənin bəyanatında diqqətçəkən digər məqam isə erməni xalqının, guya, minilliklər boyunca “quruculuq tarixi” və “mədəni irsinə” sahib olması iddiasıdır. Burada məqsəd təkcə özünü sülhpərvər və sivil toplum kimi təqdim etmək deyil, dolayısı ilə bizi dağıdıcı, mədəni irsdən məhrum obrazda göstərməkdir. Halbuki, Qafqaz albanlarının, azərbaycanlıların və digər türkdilli toplumların bölgənin zəngin irsin formalaşmasında mühüm rol oynadıqlarını tarix subut edib.

Kilsənin bəyanatında Novı Naxçıvan yeparxiyası ilə bağlı səslənən fikirlərə, yəni Rostov-Don yaxınlığına çar Rusiyası dövründə guya, Naxçıvandan köçürülmüş ermənilərin şərəfinə həmin ərazinin belə adlandırılmasına gəldikdə isə qeyd etmək lazımdır ki, bu iddia da tarixi reallıqlarla ziddiyyət təşkil edir. Əvvəla, Naxçıvan bölgəsinin tarixən Azərbaycan türklərinin yaşadığı ərazi olması faktlarla sübut olunub. XIX əsrin əvvəllərində çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti nəticəsində ermənilər bu ərazilərə yerləşdirilib, sonradan isə bu köçürülmə faktı onların qədimdən burada yaşaması kimi təqdim olunmağa başlanıb.

Regionda dini-etnik dözümsüzlüyün, xalqlararası ədavətin əsas körükləyəni olan kilsənin bəyanatı, bütövlükdə, dini arqumentlərdən çox, siyasi və ideoloji məqsədlərə xidmət edir. Tarixi faktlar çərçivəsində dəyərləndirildikdə, kilsənin irəli sürdüyü iddiaların çoxu manipulyasiya və təhrif üzərində qurulub. Kilsənin ritorikası regionda mövcud olan etnik və dini gərginlikləri artırmaqla yanaşı, sülh və dialoq üçün ciddi əngəl yaradır. Bu baxımdan, belə yanaşmaların qarşısının alınması və tarixi həqiqətlərin obyektiv şəkildə təqdim olunması vacibdir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi

***Ceyhun MƏMMƏDOV,***
***Milli Məclisin deputatı,***
***İctimai birliklər və dini qurumlar komitəsinin üzvü:***



– Təəssüflə qeyd etmək lazımdır ki, Qafqaz Müsəlmanları İdarəsi sədrinin mayın 22-də söylədiyi fikirlərə erməni kilsəsi hər zaman olduğu kimi qərəzlə və həqiqətləri saxtalaşdırmağa cavab verməyə çalışıb. Ümumiyyətlə, hər kəsə məlumdur ki, haylar bu bölgəyə sonradan gəlmələrdir. Bunu faktlar sübut edir. İndiki Ermənistan ərazisinin böyük hissəsinin tarixi Azərbaycan torpağı olması, orada təbii olaraq, azərbaycanlıların yaşadıqları təkzibedilməz faktdır. Həmin ərazilərdə soydaşlarımıza məxsus bir çox tarixi-dini abidələrin olması da bunu bir daha təsdiq edir. Bu mənada, əsl saxtakar məhz erməni kilsəsidir.

Əslində, şeyxülislamın yanaşması da bundan ibarətdir ki, erməni kilsəsi bu üsluba, bu metoda son qoymalıdır. Yəni öz mövqeyini, yanaşmasını, baxışını, siyasətini dəyişməlidir. Təəssüf ki, bu gün, eləcə də əvvəlki dövrdə iki xalq arasında etnik ədavəti qızışdıran, indi də ermənilər və azərbaycanlıların arasında sülhün bərqərar olmasına ən çox mane olan dövlətdaxili struktur erməni kilsəsidir. Baxın, bu gün Azərbaycan və Ermənistan siyasi hakimiyyəti tərəfindən sülh üçün çalışıldığı, iki ölkə rəsmiləri tərəfindən bölgəyə sülhün gəlməsi üçün real addımların atılması üçün səylər göstərildiyi bir vaxtda erməni kilsəsi öz “rolunu” oynamağa çalışır. Yenidən bölgəmizdə sülhə deyil, müharibəyə xidmət edən addımlar atmağa cəhdlər edir. Biz bu gün bunu açıq-aydın görürük.

Erməni kilsəsinin oynadığı destruktiv rolun kifayət qədər bariz nümunəsi var. Vaxtilə işğal olunmuş ərazilərimizdə məscidləri kimlər dağıdıblar? Dağıdılmış məscidlərin yerində kilsə tikənlər kimlərdir? Bu siyasəti kim həyata keçirib? Yəni bu gün biz bu prosesə diqqətlə baxdıqda düşmənçiliyi körükləyənin və qeyd etdiyimiz kimi saxtalaşdırmanı aparanın erməni kilsəsi olduğunu görürük. İşğaldan azad edilmiş Azərbaycan ərazilərində, eləcə də Qərbi Azərbaycanda özlərinin iddia etdikləri “qədim erməni xalqına” mənsub bircə ədəd tarixi abidə və kilsə göstərsinlər. Onların bura gəlməsini sübut edən çox sayda fakt var. Ona görə də erməni kilsəsinin hazırda bu formada yanaşması, atdığı addımlar, qeyd etdiyimiz kimi, yalnız xalqlar arasında düşmənçiliyə, ədavətə və nifrətin artmasına səbəb olur.

Kilsənin Qarabağla, Naxçıvanla bağlı fikirlərinə gəldikdə isə, qeyd etməliyəm ki, bunun da heç bir əsası yoxdur. Bu da yalandan, böhtandan, həqiqətlərin saxtalaşdırılmasından başqa bir şey deyil. Ona görə də bu gün onların bizə qarşı səsləndirməyə hər hansı doğru fikri, hansısa addım atmağa əsasları yoxdur. Yaxşı olar ki, erməni kilsəsi, nəhayət, düşmənçiliyə, İslam dini əleyhinə addımlar atmağa, saxtakarlığa, həqiqətlərin saxtalaşdırılmasına yönəlmiş cəhdlərə son qoysun. Onların atdıqları bu addımlar özlərinin dinlərinə, dini inanclarına, xristianlığın təməllərinə də ziddir.

# Azərbaycanın 2 şərti və Ermənistanın direnişi

(əvvəli 1-ci səhifədə)

N.Paşinyan bildirib ki, sülh müqaviləsinin imzalanması Ermənistanla Azərbaycan arasındakı bütün problemləri yoluna qoyur. Məsələnin bu tərəfi ilə müəyyən mənada razıyıq. O mənada ki, həqiqətən, barış sazişi iki Cənubi Qafqaz ölkəsinin bir-birinə yanaşma tərzində müsbət dinamikanın əldə edilməsi baxımından müstəsna rol oynayacaq. Ancaq bunun üçün gərək əvvəlcə həmin saziş özü reallığa çevrilsin. Yəni, Azərbaycanın bütün bəndləri razılaşdırılmış sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərt yerinə yetirilsin. Şərtlər isə məlumdur – Ermənistan konstitusiyasına dəyişiklik – sənədin ölkənin Azərbaycana qarşı ərazi iddiası məntiqini özündə daşıyan İstiqaliyyət bəyannaməsinə istinadının aradan qalxması və ATƏT-in Minsk qrupunun ləğvi. O qrup ki, Bakı ilə İrəvan arasında ərazi münaqişəsi düşüncəsini yaşadır. Nəzərə alaq ki, Minsk qrupu uzun müddət, faktiki olaraq, erməni işğalını leqallaşdırmaq yolunu tutmuşdu. Bu səbəbdən ölkəmizin şərti ondan ibarətdir ki, Azərbaycan və Ermənistan onun fəaliyyətinin rəsmən dayanması üçün müvafiq birgə müraciət ünvanlasın.

Paşinyanın forumdakı çıxışında dediklərinə gəldikdə, məlum olur ki, Bakının iki şərti yerinə yetirilməyəcək. Deməli, erməni hökumət başçısının ölkəsinin sülh müqaviləsinin imzalanmasına hazırlığına dair fikirləri populistlikdən başqa bir şey deyil. Amma Paşinyanın çıxışında bir pozitiv məqam var. O deyir ki, "mən konstitusiya islahatlarına təşəbbüs edəcəyəm, çünki sülh prosesi və barış sazişi əldən verilməməlidir. Cəmiyyəti uzunmüddətli sülh naminə dəyişikliklərə razı salmalıyıq".

Nikol yalnız bu fikri dilə gətirib, başqa nə isə bildirməsəydi, elə başa düşərdik ki, Ermənistan Azərbaycanın irəli sürdüyü sülh şərtlərindən birini qəbul edir. Ancaq məsələ heç də göründüyü kimi sadə mahiyyət daşımır. Çünki ön planda olan Paşinyanın tutuquşuluğudur. Ola bilər, o, öz aləmində erməni cəmiyyətini referenduma hazırlamaq istədiyindən, əsl mahiyyəti araya salıb vurğulayır. "Əmması" budur ki, baş nazir ATƏT-in Minsk qrupunun danışıqlar meydançası kimi yaradıldığını deyir. Ardınca isə "Ermənistan tərəfi üçün Minsk qrupunun buraxılması məqbul hesab olunur. Lakin biz əmin olmalıyıq ki, Ermənistan və Azərbaycan vəziyyəti eyni şəkildə dəyərləndirir. Onların (Azərbaycanı nəzərdə tutur – red.) məqsədi münaqişəni Ermənistan ərazisinə daşımaq deyil".

Birincisi, Minsk qrupu Azərbaycanın yox, Ermənistanın ərazi iddiası səbəbindən yaranmışdı. Yəni, Qarabağ və işğal etdiyi digər torpaqlarımızın "münaqişəli ərazi" kimi təqdimatına rəvac verən Ermənistan olmuşdu. Buna görə də Paşinyan deyə, yaxud eyham vura bilməz ki, Azərbaycan münaqişəni Ermənistan ərazisinə daşımaq istəyir. Ən azından məsələnin qoyuluşu yerinə düşmür.

İkincisi, ölkəmiz özünün ərazi bütövlüyünə və suverenliyinə qovuşub. Deməli, Nikolun təbirincə desək, danışıqlar meydançası kimi yaradılmış Minsk qrupuna ehtiyac qalmayıb. Həm də ona görə ehtiyac qalmayıb ki, obrazlı desək, meydançada toz qoparan Azərbaycan yox, Ermənistan olub. Söhbət Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" sərsəmləməsindən gedir. Məsələ bu qədər sadədir. Nikol isə sadəliyə mürəkkəblik tonu gətirir. O deyir ki, "təəssüf ki, son illərdə Azərbaycan Ermənistan ərazisinin təxminən 60 faizini "Qərbi Azərbaycan" adlandırmağa başlayıb. Biz dəfələrlə bildirmişik ki, Ermənistanın suveren ərazisində Qərbi Azərbaycan ola bilməz".

Axı illərlə Azərbaycanın suveren ərazisində "Artsax" olub. Belə çıxır ki, rəsmi İrəvan Bakının ATƏT-in Minsk qrupunun ləğvini həyata keçirmək məsələsindən buna görə ehtiyatlanır. "Artsax"ın tarixin zibilliyindəki yerini möhkəmləndirməkdən çəkinir. Əslində isə Paşinyanın Qərbi Azərbaycanla bağlı irəli sürdüyü "arqument" manipulyasiya yüklüdür. Onun sülh müqaviləsinin imzalanması ilə ATƏT-in Minsk qrupunun ləğvi prosedurunun eyni anda başlamasına dair fikirləri də həmçinin.

Yeri gəlmişkən, Nikol əvvəllər də bu məsələni qabardıb və onun xaricdəki ermənipərəstlərə güvəndiyi tam aydındır. Bir anlıq, təsəvvür edin ki, sülh müqaviləsi imzalanır və Azərbaycanla Ermənistan Minsk qrupunun fəaliyyətinin rəsmən dayandırılması üçün müştərək müraciət ünvanlayır. Kim təminat verə bilər ki, həmin erməniprəstlər ATƏT rəhbərliyinə təsisatı ləğv etməmək üçün təzyiq göstərməyəcəklər. Hər şey mümkündür. Necə deyərlər, mədəmiz erməni hiylələrinə toxdur.

*

Digər məqama keçid alaq. Paşinyan manipulyativ dəst-xəttini Azərbaycanın Ermənistan konstitusiyasına dəyişiklik tələbinə münasibətdə də göstərib. O deyib ki, tərəflərin bir-birinə qarşı ərazi iddiası olmamalıdır. Baş nazir ritorik sual da səsləndirib: "Gəlin anlayaq, Ermənistan konstitusiyasında belə bir iddia varmı?

Əvvəldə Ermənistanın əsas qanununda ölkənin Azərbaycana qarşı ərazi iddiası motivini daşıyan İstiqlaliyyət bəyannaməsinə istinadın mövculuğunu vurğuladıq. Nikol isə ritorikasını əsaslandırarkən deyir ki, Ermənistan konstitusiyasında ərazi iddiasının yer alıb-almadığını müəyyənləşdirmək səlahiyyəti ölkənin konstitusiya məhkəməsinə aiddir. Görəsən, o, nəyə görə belə düşünür? Axı İstiqlaliyyət bəyannaməsi qəbul ediləndə sözügedən qurumun izi-tozu belə yox idi. İkincisi, Ermənistanın təkcə konstitusiya məhkəməsinin deyil, ümumən bütün dövlət qurumlarının fəaliyyətinin çıxış nöqtəsini konstitusiya təşkil edir. Konstitusiya da mənbəyini İstiqlaliyyət bəyannaməsində götürürsə, əsas qanun ümumixalq səsverməsində – referendumda qəbul olunubsa, deməli, qərar verən erməni xalqıdır. İndi də qərarvermə növbəsi xalqındır.



Ermənistan konstitusiya məhkəməsinin xalqın adından qərar çıxarması mümkünsüzdür. O cümlədən, qurumun Ermənistan və Azərbaycanın sərhədlərinin delimitasiya və demarkasiyası üzrə komissiyalarının reqlamentinin əsas qanuna uyğunluğunu bildirib müsbət rəy verməsi, hələ o demək deyil ki, rəsmi İrəvanın ölkəmizə qarşı ərazi iddiası yoxdur. Habelə, Ermənistan konstitusiya məhkəməsinin İstiqlaliyyət bəyannaməsinin əsas qanunda olmayan müddəalarının etibarsızlığına dair qərarı da etibarsızdır. Ən azından, məhkəmənin belə qərar çıxarmaq üçün nə səlahiyyəti var, nə də hüququ. Avantürist hayların fikrincə, hətta mənəvi haqqı da yoxdur.

Üstəlik, Nikolun əsaslandırması qəribədir. Onun sözlərinə görə, həm Ermənistan konstitusiya məhkəməsinin haqqında söz açdığımız qərarı, həm də qurumun 1991-ci ilin Alma-Ata Bəyannaməsinin ölkənin əsas qanununa uyğunluğunu təsdiqləməsi Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmadığını sübuta yetirir. Belədə ortaya sual çıxır: Ermənistan konstitusiya məhkəməsi sabiq SSRİ-yə daxil olan respublikaların bir-birinin ərazi bütövlüklərini və suverenliklərini tanımasını nəzərdə tutan Alma-Ata Bəyannaməsinin əsas qanuna uyğunluğunu təsdiqləmişdisə, nə üçün Ermənistan Azərbaycanın torpaqlarını işğal etmişdi? Deməli, Ermənistan heç bir sənədə məhəl qoymayıb. Elə məsələnin məğzi də budur.

Onu da bildirək ki, erməni ictimai rəyində Azərbaycanın şərtlərinin Ermənistanı və erməni xalqını aşağılamaq məqsədi daşıdığını bildirənlər var. Görünür, rəsmi İrəvan da bu deyimlərin fərqindədir və ona görə direniş göstərir. Reallıq isə budur ki, Ermənistan otuz il ərzində torpaqlarımızı işğalda saxlamaqla, həm dövlətimizi, həm də xalqımızı aşağılamaq yolu tutmuşdu. Xalqımız tarixin heç bir dövründə erməni qövmünə qarşı işğalçılıq siyasəti aparmayıb. Erməni xalqı isə hay millətçilərinin avantürist niyyətlərində yer alıb. Bunu ümumi tendensiya kimi qiymətləndirir, sadə haylara qarşı düşmən münasibət bəsləmirik. Amma onlar da durumu anlamalıdırlar və buna məhkumdurlar.

Məhz bu məhkumiyyətə görə də erməni xalqı referenduma gedib Azərbaycanın tələbini yerinə yetirməli, əslində, avantürizmə "yox" deməlidir. Dərk edilməlidir ki, ölkəmizin şərti aşağılamaq yox, həm özü üçün təminatdır, həm də islah şansıdır. Hər halda, nəinki otuz ilədək davam edən işğalçılığın, eyni zamanda, əvvəlki dövrlərin qəsbkarlıq niyyətlərinin bir bədəli olmalıdır. Bədəl nə konstitusiya məhkəməsinin qərarı, nə də Paşinyanın, yaxud qeyrsinin sözü ilə ödənə bilər. Həm də ona görə ki, indiyədək hay qövmünün sözünə çox inanmış, hər dəfə zülm və zillətə, məhrumiyyət və çətinliklərlə, faciə və acılara düçar olmuşuq.

Digər tərəfdən, Paşinyan başda olmaqla, Ermənistan rəhbərliyi 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı məğlubiyyət aktı kimi qəbul etmirsə, həmçinin rəsmi İrəvan və tərəfdarları müharibədən sonra bütün beynəlxalq tribunalarda anti-Azərbaycan siyasəti aparırlarsa, onlar vaxtilə Qarabağdakı separatçılığı qorumaq naminə fəaliyyət gerçəkləşdirmişdilərsə, kim təminat verə bilər ki, eyni "amplua" davam etməyəcək?

Ermənistan konstitusiyasının işğalçı İstiqlaliyyət bəyannaməsindən imtinası erməni xalqının məkrli niyyətlərə düşməyəcəyinə, sülhə sadiq qalacağına dair böyük səmimiyyət jestinə çevriləcək. Görünən odur ki, Ermənistan dövləti və xalqı səmimiyyət sınağından keçmək fikrində deyil. Ona görə də Paşinyan nağıl danışır və forumdakı çıxışı zamanı onu da deyir ki, Azərbaycanın Konstitusiyasında, guya, Ermənistana qarşı müəyyən ərazi iddiaları var: "Amma biz bu məsələni gündəmə gətirməmişik. Çünki hesab etmişik ki, müqavilə (sülh sazişi nəzərdə tutulur – red.) imzalandıqdan sonra bu məsələ həll olunacaq".

N.Paşinyanın həyasızlığına salıb üzərində dayandığı daha bir məqam da var. Onun sözlərinə görə, bəzi ekspertlər hesab edirlər ki, Azərbaycan barış müqavilənin imzalanmasını uzatmağa çalışır: "Müqavilənin imzalanması həm Ermənistan, həm də Azərbaycan üçün mümkün bütün problemləri həll edir. Diqqəti imzalanmaya yönəltmək lazımdır. Mən, hökumətimiz və siyasi komandamız irəliləməyə və regionda uzunmüddətli sülhə nail olmaq üçün məsuliyyəti üzərimizə götürməyə hazırıq".

Bəli, tam əminliklə deyə bilərik ki, Paşinyan dünyanın erməni yalanlarına inandırmaq yolunu tutur və mövcud kontekstdə onun başlıca məqsədi barış deyil, ümumən sülh mövzusunun gündəmdə qalmasıdır, sülhün imitasiyasıdır. Ermənistanın hakim komandası bu mövzunun aktuallığını saxlamaqla, həm güclənmək üçün vaxt udmağa çalışır, həm də dünyanın ölkəmizə qarşı təzyiq göstərməsinə səy göstərir. Əlbəttə, həm hakim hay düşərgəsinin, həm də bu düşərgənin havadarlarının öz "planlarını" gerçəkləşdirə bilməyəcəkləri tam aydındır. Aydın olmayan onların bütün cəhdlərinin, indiki halda anti-sülh gedişlərinin Ermənistan adlı dövlətin varlığına son qoymağa hesablandığını anlamamalarıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Erməni işğalının üz qaralığı mədəni irsdirmi?

## *İtaliya nəşri bu sualın aydın cavabını verib*

**İşğalçı Ermənistan Qərbi Azərbaycanda və Qarabağda xalqımızın tarixi və mədəni irsinə qarşı sistemli şəkildə düşmənçilik siyasəti aparıb, misilsiz vandalism aktları törədib. Bu tarixi rüsvayçılığa baxmayaraq, erməni təbliğat maşını yeni antihumanist niyyətləri reallığa çevirməyə cəhd edir.**

Faşist düşüncəli erməni başbilənləri işğal dövründə Azərbaycanın yaşayış məntəqələrinin saxta adlarının yazıldığı lövhələri və talançı ordu əsgərlərinin şərəfinə ucaldılmış "xaçkarlar"ı indi, guya, Azərbaycanın qorumağa borclu olduğu "xristian irsi" kimi təqdim edirlər.

Bu barədə politoloq Fuad Axundov İtaliyanın "Informazione cattolica" nəşrinə yazdığı məqalədə bildirib ki, Ermənistan Cənubi Qafqazda etnik təmizləmə nəticəsində formalaşmış yeganə monoetnik dövlətdir. Onun sözlərinə görə, bu ölkənin nümayəndələrinin Azərbaycanı işğal dövründə qeyri-qanuni şəkildə inşa olunmuş tikililəri və yazıları "qorumamaqda" ittiham etməsi absurddur: "Onlar heç bir mədəni və hüquqi status daşımır. Buna görə də, heç kim Azərbaycandan bu cür simvol və obyektləri qoruyub saxlamağı tələb edə bilməz.

Əslində, Ermənistanın özü uzun illər boyunca Azərbaycanın tarixi və mədəni irsinə qarşı sistemli şəkildə düşmənçilik siyasəti aparıb. İrəvanın azərbaycanlıların yaşadığı ərazilərdə memarlıq və demoqrafik görünüş planlı şəkildə məhv edilib, XX əsrin əvvəllərində azərbaycanlılara qarşı soyqırımı törədilib, minlərlə azərbaycanlı toponimi zorla dəyişdirilib. Bütün bunlar sənədlərlə sübut olunmuş tarixi faktlardır".

Haylar həm də Qarabağ və Şərqi Zəngəzurda da yer adlarının, eləcə də, tarixi memarlıq abidələrinin forma və məzmununu dəyişdirib, azərbaycanlıların izlərinin itirilməsi üçün bir çox bədii daş nümunələrini, türbələri, qəbristanlıqları, qəbirüstü abidələri və at-qoç fiqurlarını məhv edib. Bu ərazilərdə qeyri-qanuni aparılan arxeoloji qazıntılar zamanı əldə edilən dəlillərin ermənilərə məxsusluğunun təbliğini həyata keçiriblər. Məsələn, Ağdamda qanunsuz arxeoloji qazıntılar aparılıb.

Məqsəd qondarma "Arsax"ın, e.ə. I əsrdə Ermənistanın tərkibinə daxil olması barədə mifi "təsdiq" etmək olub. Qazıntılar nəticəsində, guya, erməni dövlətçiliyinin qədimliyini təsdiq edən yazılı və arxeoloji sübutlar əldə edilib. Guya, "böyük" Tiqranın "Artsax"da əsasını qoyduğu Tiqranakert şəhərinin izləri tapılıb. Bu cəhdlərlə onlar tarixi abidələri saxtalaşdıraraq, "böyük ermənistan" xəyallarına alət ediblər. Yada salaq ki, Ağdam bölgəsində qazıntılar zamanı ortaya çıxan eksponatlar Yerevana, antropoloji parçalar isə Avropa ölkələrinə göndərilib. Tarixi eksponatların sonrakı taleyi haqqında bu gün də dəqiq məlumat yoxdur. Bu əməllər Azərbaycan tarixi abidələrinin istismar edildiyini bir daha təsdiqləyir.



Azərbaycan Milli Elmlər AkademiyasınınTarix İnstitutunun elmi işçisi, Ramin Əlizadə bildirdi ki, hayların işğal dövründə Ağdamda apardıqları qazıntı işləri zamanı tapılan bütün maddi-mədəniyyət nümunələri, kurqanlar Azərbaycan xalqına məxsusdur: Orada qəbir abidələrinin kurqan formasında olması bunun türk xalqlarına aid olduğunu sübut edir, aşkar olunan müxtəlif əşyalar isə oğuz türklərinin gündəlik istifadə etdikləri keramika nümunələridir. Burada tapılan müxtəlif məişət əşyaları, silahlar, tuncdan hazırlanmış nizə ucluqları, oxlar və s. türk tayfalarına məxsusdur.

Bunlar hamısı detallı şəkildə sübut olunub. Ona görə də bu ərazilərin ermənilərə aid olmasından söhbət gedə bilməz. Eyni zamanda Ağdamda, Xocalıda, Şuşada, Xocavənddə, Xankəndində, Tərtərdə yüzlərlə kurqan abidələri və bunların ətrafında olan müdafiə qalaları olub. Onlar kurqan mədəniyyətinin tərkib hissəsidir".

Tarixçi daha sonra qeyd etdi ki, təxribat yaratmaq ermənilərin adətidir: "İşğal etdiyi ərazilərdə yalançı arxeoloji qazıntılar apararaq, qazıntıların nəticələrini saxtalaşdıraraq özlərinə uydurma tarix yaratmaq ermənilərin köhnə peşəsidir. XIX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən Şimali Azərbaycan torpaqlarına köçürülən hayların bu ərazidə qədim abidələri necə ola bilərdi?!"

Bundan başqa, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər kimi bölgələrdə yüzlərlə abidə vandalizmə məruz qalıb. XIII əsrə aid Gəncəsar monastrı silah anbarına çevrilib, Laçındakı Sisərnəvəng monastrı isə təmir adı altında dəyişdirilib. Deməli, Azərbaycana qarşı ermənilik saxtakarlığı müxtəlif istiqamətləri əhatə edir: ölkəmizin xristian irsinin özününküləşdirilməsi, Azərbaycanın islam sivilizasiyasının saxtalaşdırılması, ümumazərbaycan tarix və mədəni dəyərlərinin mənimsənilməsi, Azərbaycanın tarixi rolunun təhrif edilməsi, erməniprəst dövlətlər və əcnəbi tədqiqatçılar vasitəsilə Azərbaycanın tarixi irsinə qarşı təbliğatın təşkil edilməsi.

Erməni tərəfi işğal dövründə həyata keçirdiyi fəaliyyətləri təkcə hərbi və siyasi sahələrlə məhdudlaşdırmayıb. Eyni zamanda, mədəni irsin saxtalaşdırılması istiqamətində də ciddi addımlar atıb. Bu çərçivədə onlar müxtəlif "xatirə ansamblları", xaç daşları və saxta kilsələrin inşası ilə öz təbliğatlarını daha da "zənginləşdirməyə" çalışıblar. Hətta ermənilərin heç vaxt yaşamadığı ərazilərdə, o cümlədən Laçın və Cəbrayıl rayonlarında erməni kilsələri tikilib.

Ümumiyyətlə, haylar Şuşa şəhərində 3, Şuşa-Laçın yolunda Fətiş bulağı deyilən ərazidə 1, Laçın şəhərində 2, Laçın rayonunun Zabux kəndində 1, Şuşa Xankəndi yolunun üzərində 2, Xankəndi şəhərində 4, Əsgəran qəsəbəsində 2, Ağdam rayonunun Şahbulaq qəsrinin yanında 1 kilsə inşa ediblər. Bundan başqa, Laçın rayonu ərazisində 10, Kəlbəcər rayonu ərazisində 7, Qubadlı rayonu ərazisində 3, Zəngilan rayonu ərazisində 2, Cəbrayıl rayonu ərazisində 3, Füzuli rayonu ərazisində 2, Ağdərə, Əsgəran, keçmiş Hadrut və Martuni rayonlarının ərazilərində isə 15 alban dövrü məbədi təmir edilərək, erməni kilsəsi statusu verilib.

Xatırladaq ki, qanunsuz tikililərdən biri də Laçın şəhərində, 1996–1998-ci illərdə, Qubad İbrahimova məxsus qanuni mülkiyyətin yerində inşa olunmuş "kilsə"dir. Həmin tikili ermənilər tərəfindən "qədim tarixi abidə" kimi təqdim edilib. Burada tarixin saxtalaşdırmadan söhbət gedir, gələcəkdə bu ərazilərin tarixi erməni ərazisi olması iddiasından söhbət gedir. Halbuki,



bu ərazilərdə tarixən ermənilər yaşamayıblar. Deməli, hansısa tarixi erməni kilsəsindən söhbət gedə bilməz.

Beləliklə, Qarabağ dünya tarixində görünməmiş dağıntılar meydanına çevrilib. Burada hər şey dağıdılıb: 67 məsciddən 64-ü, yaşayış binaları, məktəblər, xəstəxanalar, muzeylər, rəsm qalereyaları, hətta qəbiristanlıqlar və türbələr. Bundan başqa, 1 milyon azərbaycanlı dədə-baba torpaqlarından qovulub. Bu vəhşiliyə görə heç kim Azərbaycandan üzr istəməyib, heç kim cəzalandırılmayıb, bütün bunlar təbii qarşılanıb. İndi isə Azərbaycandan haqq-hesab tələb olunur ki, ölkəmizin hakimiyyət orqanları işğalçılar tərəfindən Azərbaycan şəhərlərinin uydurma erməni adları ilə quraşdırdıqları lövhələri, saxta xaçkarları, sonradan tikilmlş kilsələr niyə qorumur! Bu dərəcədə saxtakarlıq, ikiüzlülük olmaz.

Ona görə də erməni tərəfinin nümayəndələrindən tarixi irsin dağıdılması ilə bağlı mənəvi arqumentlər eşitmək, ən azı, qəribədir. Bu faktlar sübut edir ki, ermənilər işğal dövründə yalnız torpaqları deyil, həm də Azərbaycanın tarixi-mədəni irsini mənimsəmək, onu saxtalaşdıraraq dünyaya yanlış təqdim etmək üçün məqsədyönlü fəaliyyət həyata keçiriblər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan və Misir arasında parlamentlərarası münasibətlərin dərinləşdirilməsinə dair fikir mübadiləsi aparılıb





**Mayın 26-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeq ilə görüşüb.**

Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və humanitar sahələri əhatə edən ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Görüşdə iqtisadi əlaqələrin ikitərəfli münasibətlərdə mühüm yer tutduğu vurğulanaraq Azərbaycan və Misir arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların və kifayət qədər böyük potensialın mövcudluğu qeyd olunub.

Sahibə Qafarova Azərbaycan ilə Misir arasında ikitərəfli və çoxtərəfli münasibətlərə əhəmiyyətli müsbət təsir göstərən amillərdən biri kimi qanunverici orqanlar arasında qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğulayıb. O, 2023-cü ildə Misirə rəsmi səfərini məmnunluqla xatırlayaraq, bu səfər çərçivəsində keçirilən görüşlərin əhəmiyyətini qeyd edib və parlamentlərarası münasibətlərin dərinləşdirilməsi baxımından dostluq qruplarının birgə fəaliyyətinin rolunu xüsusi olaraq diqqətə çatdırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən Misir Senatının sədri Abdel Vahab Abdel Razeq Azərbaycana rəsmi səfərindən və Milli Məclisdə olmaqdan məmnunluğunu bildirib, Prezident İlham Əliyevlə keçirdiyi görüş və apardığı müzakirələr barədə təəssüratlarını bölüşüb. O, bu görüşün mehriban və səmimi şəraitdə keçdiyini vurğulayıb.

Senatın sədri hazırda Misir və Azərbaycan arasındakı münasibətlərin özünün qızıl dövrünü yaşadığını vurğulayaraq, bunu ölkə başçılarının şəxsi münasibətlərinin, qarşılıqlı səfərlərinin və müntəzəm təmaslarının nəticəsi kimi dəyərləndirib. O, parlamentlərarası əlaqələrin inkişafında bu münasibətlərin mühüm rol oynadığını qeyd edib və qanunverici orqanlar arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Daxili işlər naziri** Vilayət Eyvazov | Bərdə | Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Zərdab, Laçın, Şuşa | 02 |
| 2 | **Baş prokuror** Kamran Əliyev | Lənkəran | Lənkəran, Astara, Lerik | 03 |
| 3 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Astara | Astara, Lənkəran, Lerik | 04 |
| 4 | **Ədliyyə naziri** Fərid Əhmədov | Gədəbəy | Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax | 05 |
| 5 | **Gənclər və idman naziri** Fərid Qayıbov | Masallı | Masallı, Yardımlı | 12 |
| 6 | **Mədəniyyət naziri** Adil Kərimli | Göygöl | Göygöl, Gəncə, Daşkəsən, Samux, Goranboy, Naftalan | 12 |
| 7 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Qəbələ | Qəbələ, Şəki, Oğuz, İsmayıllı, Ağsu | 12 |
| 8 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Mingəçevir | Mingəçevir, Yevlax | 13 |
| 9 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Quba | Quba, Qusar, Xaçmaz, Şabran | 13 |
| 10 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Tovuz | Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax | 13 |
| 11 | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab | 13 |
| 12 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Şirvan | Şirvan, Salyan | 16 |
| 13 | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | Ağsu | Ağsu, İsmayıllı | 16 |
| 14 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Şabran | Şabran, Quba, Qusar, Xaçmaz, Siyəzən, Xızı | 17 |
| 15 | **Baş prokuror** Kamran Əliyev | Gədəbəy | Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax | 20 |
| 16 | **Energetika naziri** Pərviz Şahbazov | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı | 20 |
| 17 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Zaqatala | Zaqatala, Balakən | 20 |
| 18 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Daşkəsən | Daşkəsən, Gəncə, Goranboy, Naftalan, Göygöl, Samux | 20 |
| 19 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Tərtər, Bərdə, Ağcabədi, Laçın, Goranboy, Naftalan, Xocalı | 20 |
| 20 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Sabirabad | Sabirabad, Saatlı, İmişli | 20 |
| 21 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Mingəçevir | Mingəçevir, Yevlax | 20 |
| 22 | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | Saatlı | Saatlı, Sabirabad, İmişli | 20 |
| 23 | **Elm və təhsil naziri** Emin Əmrullayev | Daşkəsən | Daşkəsən, Gəncə, Göygöl, Samux, Goranboy, Naftalan, Kəlbəcər | 27 |
| 24 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Şamaxı | Şamaxı, Qobustan | 27 |
| 25 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Balakən | Balakən, Zaqatala | 27 |
| 26 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Beyləqan | Beyləqan, Füzuli, Xocavənd | 27 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Qafqazın yeni “üçbucağı”

## *Hindistanın silah dəhlizi regiona dinclik yox, təhlükə daşıyacaq*

**Geosiyasi dəyişikliklər və regiondakı yeni təhlükəsizlik çağırışları fonunda Ermənistanın qonşu ölkələrlə əməkdaşlıqdan çox, uzaq Hindistan və sərhədi olmayan Yunanıstanla strateji tərəfdaşlığa üstünlük verməsi xüsusi diqqət cəlb edir. Bu kontekstdə İrəvanın Hindistanın “Make in India” (“Hindistanda istehsal et”) strategiyası çərçivəsində hərbi-sənaye istehsalının lokallaşdırılması və inkişafında iştirak etməyə maraq göstərməsi təsadüfi deyil. Ermənistan nümayəndə heyətinin Afinada Hindistanın Uttar Pradeş ştatının rəsmiləri ilə keçirdiyi görüş və “Hindistan Müdafiə Sənayesi Dəhlizi” layihəsində iştiraka dair danışıqları region üçün ciddi geosiyasi siqnal kimi qiymətləndirilə bilər.**




“Hindistan Müdafiə Sənayesi Dəhlizi” layihəsi Hindistanın müdafiə sənayesini inkişaf etdirməyə və onun silah idxalından asılılığını azaltmağa yönəlmiş bir təşəbbüsdür. Proqram Uttar Pradeş və Tamil Nadu ştatlarında hərbi texnika və aerokosmik texnologiyalar istehsalı ilə məşğul olan müəssisələrin cəmləşdiyi iki sənaye dəhlizi yaradır. Hərbi ekspertlər bildirirlər ki, Hindistan yerli silah istehsalının payını artırmağı və ölkənin müdafiə istehsalının 70 faizinə çatmağı hədəfləyir. Yerli mütəxəssislər də iddia edirlər ki, dəhlizlər regionların inkişafına, iş yerlərinin açılmasına, investisiyaların cəlb olunmasına töhfə verir. Yəni rəsmi Yeni Dehli hamını inandırmağa çalışır ki, Hindistan müdafiə müstəqilliyini gücləndirmək üçün “Hindistanda istehsal et” proqramını fəal şəkildə təbliğ edir və bu dəhlizlər Hindistanın müdafiə sənayesinin modernləşdirilməsində və müdafiə ixracının genişləndirilməsində əsas rol oynayır.

Ümumiyyətlə, Hindistan yüksək texnoloji silahların istehsalı sahəsində inkişaf etmək istəyir, özünü təmin etməyə çalışır və qlobal silah bazarında mövqeyini möhkəmləndirməyi planlaşdırır. Doğrudur, ölkə bir sıra müasir sistemlər istehsal edir, ancaq yüksək texnoloji seqmentdə Hindistanın aparıcı gücə çevrilmə şansı hazırda böyük deyil, bu yol çətinliklərlə doludur. Hindistan silahlarının keyfiyyəti də müzakirə mövzusudur. Bu kontekstdə Cənubi Qafqazdakı yeni reallıqları qəbul etməyən Ermənistan Hindistanla strateji əməkdaşlıq əlaqələri qurur. Təsadüfi deyil ki, son illər Ermənistan silah bazarında ənənəvi tərəfdaşı olan Rusiyadan yox, Hindistandan silah alır. Amma burada mühüm bir məqam var. Hindistan hazırda qlobal silah bazarında satıcıdan çox alıcı kimi tanınır. Onu hətta silah idxalında dünya lideri adlandırmaq olar. Bu, Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) ötən il dərc etdiyi beynəlxalq silah transferlərinə dair hesabat da təsdiqləyir. Yəni Ermənistana silah satan Hindistan özü də başqa ölkələrdən silah alır və raket, təyyarə və döyüş gəmilərinin istehsalı üçün lazım olan kritik texnologiyalara malik deyil.

Bununla belə, Hindistan Pakistan ilə son qarşıdurmadakı uğursuzluğu və Türkiyənin, eləcə də Azərbaycanın İslamabadı birmənalı dəstəkləmələri fonunda Ermənistanı öz orbitinə çəkməyə can atır. Rusiyanın hərbi texnologiyaları əsasında yaratdığı silahları İrəvana satır və bununla da Cənubi Qafqaz regionunda güclü Azərbaycan-Türkiyə-Pakistan ittifaqına qarşı güc balansı yaratmağa çalışır. Ermənistana Hindistan silahlarının tədarükü ilə bağlı bəyanatlar, o cümlədən bəzi məlumatlara görə, “Pinaka” reaktiv yaylım atəşi sistemləri, tank əleyhinə raket sistemləri, artilleriya, eləcə də, digər sistemlər Azərbaycan tərəfindən regional sabitlik və təhlükəsizliyə birbaşa təhdid kimi qəbul edilir. Ermənistanın xarici təchizatlar hesabına hərbi potensialını gücləndirməyə yönəlmiş bu siyasəti Bakıda ciddi narahatlıq doğurur.

Xüsusilə Hindistan, Yunanıstan və Ermənistan arasında intensivləşən siyasi və hərbi əlaqələr, yeni bir geosiyasi üçbucağın – Hindistan–Yunanıstan–Ermənistan oxunun formalaşmaqda olduğunu göstərir. Bu üç ölkənin əməkdaşlığı yalnız ikitərəfli maraqlardan irəli gəlmir, həm də onların ortaq rəqiblərə və regional dinamikaya qarşı strateji balans yaratmaq niyyətini əks etdirir. Lakin bu cür ittifaqlar, xüsusilə, Cənubi Qafqaz, Aralıq dənizi və Egey dənizi regionları kimi həssas və çoxqütblü coğrafiyalarda sabitliyə ciddi risklər yarada bilər. Hindistan üçün bu əməkdaşlıq Türkiyə və Pakistanın strateji yaxınlaşmasına qarşı balans yaratmaq vasitəsidir. Ermənistan və Yunanıstanın Türkiyəyə qarşı mövqeləri bu baxımdan Hindistanı belə təşəbbüslərlə çıxış etməyə cəsarətləndirir.

Yunanıstan da öz növbəsində Egey dənizi və Şərqi Aralıq dənizində Türkiyə ilə gərginliyi nəzərə alaraq, Hindistan ilə ittifaq qurmaqla öz mövqeyini gücləndirməyə çalışır. Afina Yeni Delhi ilə əməkdaşlığı gücləndirməklə əsas rəqibi Türkiyəni beynəlxalq məkanlarda təcrid etməyə çalışmaq kimi perspektivsiz siyasət yürüdür. Bu kimi addımlar, təbii ki, NATO daxilində yeni gərginlik yaradır. Eyni zamanda, Yunanıstan-Hindistan oxu Aralıq dənizi regionunda Türkiyənin təsir dairəsini məhdudlaşdırmaq üçün müsəlman olmayan yeni ittifaq quruculuğu kimi qəbul edilir.

Ermənistan isə bu əməkdaşlıqla həm regional izoliyasiyadan çıxmaq, həm də Azərbaycan və Türkiyəyə qarşı alternativ dəstək qazanmaq niyyətindədir. Amma İrəvanın bu istəyi özündə böyük riskləri ehtiva edir. Çünki Ermənistanın Hindistanla hərbi əməkdaşlığı dərinləşdirməsi, o cümlədən “India Defence Industrial Corridor” layihəsinə maraq göstərməsi regionda sabitliyə təhdiddir. Bu isə 2020-ci ildən sonra yenidən formalaşan geosiyasi status-kvonu poza və sülh danışıqlarına zərbə vura bilər. İrəvan anlamaldır ki, “fillər ölkəsi”nin geosiyasi oyununun alətinə çevrilməklə Azərbaycanın təhlükəsizlik narahatlıqlarını artırır. Ermənistanın yeni silah mənbələri hesabına hərbi potensialını əhəmiyyətli dərəcədə artırmaq cəhdləri 2020-ci il məğlubiyyətindən sonra regionda yaranmış balansı dəyişmək və gərginliyin yeni mərhələsi üçün ilkin şərtlər yaratmaq cəhdi kimi qəbul edilir.

Hindistan–Yunanıstan–Ermənistan oxunun formalaşdırılması təhlükəli presedent yaradır. Bu format qarşılıqlı düşmənçiliyə əsaslanan əməkdaşlıqdır. Üçtərəfli əməkdaşlığın əsas dayaq nöqtəsi pozitiv əməkdaşlıqdan daha çox ortaq rəqiblərə qarşı yönəlmiş düşmənçilikdir. Ən əsası, bu, beynəlxalq münasibətlərdə təhlükəli presedentdir. Belə alyans regional sabitlik və çoxtərəfli diplomatik təşəbbüslərin əleyhinə işləyir. Bu mənada Ermənistanın Hindistanla müdafiə sahəsində əlaqələri dərinləşdirmək cəhdi İrəvanın hərbi ritorikasının arxasında real planların dayandığını göstərir. Əgər bu planlar həyata keçərsə, Ermənistan təkcə silah idxalçısı deyil, həm də istehsalçısına çevrilə bilər ki, bu da Cənubi Qafqazda silahlanma yarışını daha da dərinləşdirər. Bu ittifaqın ən riskli cəhəti odur ki, ortaq maraqlardan daha çox ortaq rəqiblərə olan antipatiya əsasında qurulur. Qarşılıqlı düşmənçiliyin siyasi blokun bazasına çevrilməsi Cənubi Qafqaz, Aralıq dənizi və Orta Asiya kimi regionlarda yeni gərginlik mənbələri yarada bilər.

Bir sözlə, Hindistan–Yunanıstan–Ermənistan oxunun formalaşması, ilk baxışda regional tərəfdaşlıq kimi qiymətləndirilsə də, faktiki olaraq bu təşəbbüs dinc əməkdaşlıq deyil, qarşılıqlı geosiyasi bloklanma üzərində qurulması, sabitliyə yox, qeyri-müəyyənlik və toqquşmalara yol aça bilər. Xüsusilə, sərhədlərin demarkasiyası, nəqliyyat dəhlizləri və sülh müqaviləsi layihələrinin beynəlxalq platformalarda fəal müzakirə olunduğu bir vaxtda hərbi-müdafiə təşəbbüslərində iştirak qarşıdurmanın strateji seçimi kimi görünür. Hərbi potensialın artırılmasına yönəlmiş müdafiə layihəsində iştirak Ermənistanın Azərbaycanla diplomatik nizamlanmadan daha çox “güclər balansına” mərc etdiyinə işarə kimi qəbul edilir. İrəvan unudur ki, sülhün bərqərar olması etimad tələb edir, militarizasiya yox. Əlbəttə, Azərbaycan vəziyyəti diqqətlə izləyir. Rəsmi Bakı Ermənistana silah tədarükü ilə bağlı narahatlığını ifadə edərək, bunun regional sabitliyi pozduğunu və sülhün bərqərar olmasına mane olduğunu bəyan edir.

Beləliklə, Hindistanın Ermənistanı silahlandırması və İrəvanl hərbi təşəbbüslərinə qoşmağa çalışması Cənubi Qafqazda gərginliyin yeni ölçüsünü yaradır. Bu, bütün regional və beynəlxalq aktorların diqqətinin artırılmasını tələb edir, çünki regionun gələcək hərbiləşdirilməsi uzunmüddətli sabitlik və sülh üçün gözlənilməz və mənfi nəticələrə səbəb ola bilər. İrəvan unutmamalıdır ki, Azərbaycan heç bir halda milli maraqlarının zəifləməsinə imkan verməyəcək və təhlükəsizliyinə yönələn təhdidləri neytrallaşdıracaq addımları atmaqda tərəddüd etməyəcək.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Lider humanizmi, vətəndaş məmnunluğu

## *Prezident İlham Əliyevin məhkumları əfv etmək ənənəsi cəmiyyətdə qarşılıqlı etimadı gücləndirib*



**Müasir Azərbaycan demokratik dəyər və təsisatların təşəkkül tapdığı hüquqi dövlətdir. Millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyev xalq qarşısında verdiyi vədləri 22 ildə əməlləri ilə doğruldaraq, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib. Onun cəmiyyətdən gələn sosial sifarişlərə çevik reaksiya göstərməsi, vətəndaşları narahat edən məsələlərə həssas yanaşması, onların qayğıları ilə maraqlanması, çətinliklərin aradan qaldırılması üçün zəruri tədbirlər görməsi, qərarlar verməsi, nəticə etibarilə, çoxşaxəli humanizm siyasətinin həyata keçirilməsini şərtləndirən başlıca amillərdir.**

Bu məqam xüsusi olaraq qeyd olunmalıdır: humanizm Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Bu siyasətin və müsbət ənənənin təməli Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər hər zaman mərhəmət, insanpərvərlik dəyərlərinə böyük önəm verib və bunu hakimiyyətdə olduğu dövrdə daim diqqət mərkəzində saxlayıb. Məhz onun göstərişi ilə məhkumların cəzasının yüngülləşdirilməsi, yaxud onların cəzadan tam azad edilməsi tədbirlərini həyata keçirmək məqsədilə 1995-ci ildə Bağışlanma Məsələləri üzrə Komissiya yaradılıb, 2001-ci ildə isə o, Prezident yanında Əfv Məsələləri Komissiyası ilə əvəz olunub.

Bağışlamaq, yaxud əfv etmək. Bu yolun, ənənəyə çevrilmiş humanizm siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin mayın 26-da imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam 220 şəxsə şamil olunub. Sərəncam məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq imzalanıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamı ilə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Sərəncama əsasən, 25 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş və cəzası şərti tətbiq edilmiş 1 nəfər, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzalarının çəkilməsi təxirə salınmış 2 nəfər cəzadan azad olunub.



Bundan başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər cəzanın çəkilməmiş hissəsindən azad olunub, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Həmçinin islah işləri cəzasına məhkum edilmiş 4 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunmuş 1 nəfər cəzadan azad edilib.

Prezident İlham Əliyev tərəfindən əfv edilənlərin arasında 16 əcnəbi də var. Onlardan 5 nəfəri İran, 4-ü Rusiya, 2-si Pakistan, 2-si Gürcüstan, 1-i Türkiyə, 1-i Fransa, 1 nəfəri isə Əfqanıstan vətəndaşıdır.

*

Sayca 71-ci əfv sərəncamının 28 May – Müstəqillik Günü öncəsi imzalanması əlahiddə əhəmiyyət kəsb edir. Axı bayramları, əlamətdar günləri ailəsi, doğmaları ilə birgə keçirmək hər bir insanın təbii arzusudur. Prezident İlham Əliyevin imzaladığı növbəti əfv sərəncamı dövlətimizin humanizm siyasətinə, demokratik dəyərlərə sadiqliyinin əyani göstəricisidir. Azərbaycan dövlətinin davamlı olaraq həyata keçirdiyi bu siyasət xalq tərəfindən yüksək qiymətləndirilməklə yanaşı, əhalinin ölkə rəhbərliyinə etimadını daha da artırır. Dövlətimizin başçısı ictimai-siyasi mövqeyindən, baxışlarından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının Prezidentidir və onların taleyinə diqqətlə yanaşır. Əfv bu diqqətin qayğıya çevrilməsinin təzahürüdür – desək, səhv etmərik.

Dövlət başçısının 26 may tarixli əfv sərəncamı, eyni zamanda, milli həmrəyliyin gücləndirilməsi istiqamətində atılan önəmli addımların davamıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan humanizm siyasəti məhz insan amilinə verilən qiymətin bariz nümunəsidir. Bu və ya digər səbəbdən cinayət törədənlərin, günah işlətmiş insanların əfv olunması bütün dövrlərdə istər humanizm, istər əxlaqi, istərsə də hüquqi baxımdan böyük önəm daşıyan addımdır. Qəbul olunmuş qayda və qanunlar, ədalət prinsiplərinin fərqli diktəsinə rəğmən, bağışlamaq yüksək humanizm dəyəri kimi qəbul olunur. Sadə dillə izah etsək, cinayət törədən şəxslərin qanunla müəyyənləşdirilmiş qaydada layiq olduqları cəzadan azad edilməsi dərin mənəvi keyfiyyətlərdəndir. Bu, həm də dövlətin həmin şəxsə etimad və inamının göstəricisidir. Əməllərindən peşmançılıq hissi keçirən məhkum yenidən dövlətin və cəmiyyətin etibarını qazanmaq şansına ehtiyac duyur. Burada qarşılıqlı öhdəlik məsələsi də ortaya çıxır. Yəni, dövlətin məhkumlara etimad göstərməsi onlarda özünəinam hissini artırır, bundan sonra daha məsuliyyətli vətəndaş olmaq zərurətini ortaya qoyur.

Əlbəttə ki, sərəncam imzalanarkən əfv olunan şəxslərin, onların ailə üzvlərinin, insan hüquqlarının müdafiəsi üzrə təşkilatların müraciətləri nəzərə alınır. Məhkumların şəxsiyyəti, ailə vəziyyəti, sağlamlığı, törətdikləri cinayətlərin ağırlıq dərəcəsi, eləcə də cəza çəkdikləri müddətdə davranışları xüsusi önəm kəsb edir.

**ARAYIŞ:** Müstəqillik dövründə Azərbaycanda 70 əfv sərəncamı imzalanıb, 12 amnistiya aktı qəbul edilib. Heydər Əliyevin hakimiyyətdə olduğu 1993–2003-cü illərdə 7 amnistiya aktı qəbul edilib və 32 əfv sərəncamı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox məhbusa şamil edilib. Əfv sərəncamları ilə 3 mindən çox şəxs cəzadan azad edilib. Ən böyük əfv 2023-cü ildə Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı – "Heydər Əliyev İli" çərçivəsində olub. O zaman 801 məhbus vaxtından tez azadlığa çıxıb. Məhz Heydər Əliyev humanizminin nəticəsi olaraq 1998-ci ildə ölkəmizdə ölüm hökmü aradan qaldırılıb. Azərbaycanın adı Şərqdə bu cəzanı ləğv edən ilk ölkələrdən biri kimi tarixə düşüb.

*

Əfv etmək dövlətin artıq ənənəyə çevrilmiş humanizminin, milli həmrəyliyə xidmət edən siyasətinin göstəricisidir. Humanizm, insanpərvərlik və tolerantlıq. Azərbaycan xalqı bu ali dəyərləri aydın şəkildə dərk edir, yaşayır və qoruyur.

Dövlət başçısının bugünədək imzaladığı bütün əfv sərəncamları vətəndaş–dövlət münasibətlərinin yeni şərtlər zəminində formalaşdırılmasına xidmət edir. Həmin şərtlər cəmiyyətdə ədalətin və qanunun aliliyi prinsiplərinə söykənən qarşılıqlı etimad, hörmət və rəğbət kimi mental dəyərlərdir. Əfv etmək həm də həyatlarının hansısa məqamında səhv etmiş insanları doğru yola sövq etməyin bir üsulu, onlara verilən şansdır.

Prezident İlham Əliyevin növbəti sərəncamı ilə 220 insana azadlıq, bu qədər ailəyə sevinc bəxş edildi. Biz isə ümid edirik ki, azadlığa çıxan şəxslər bundan sonra həm qovuşduqları ailələrinin xoşbəxt və rahat yaşayışı, həm də bir vətəndaş kimi ölkənin inkişafı naminə dürüst və faydalı əməllərin arxasınca gedəcəklər. Dövlət və cəmiyyət onlardan yalnız bunu gözləyir.

*İmran BƏDİRXANLI*
*XQ*

**28 May Müstəqillik Günüdür**

# Tariximizin qürurverici səhifəsi – milli parlamentarizmin yaranması

**28 may Azərbaycan dövlətçiliyinin bərpası olan Xalq Cümhuriyyətinin elan olunduğu gün kimi milli tariximizdə şərəfli yer tutur. 107 il əvvəl, mayın 27-də ilk Azərbaycan dövlət qurumu olan Milli Şuranın yaranması elan edilmişdi. Tariximizin çox vacib qərarları – Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi, bu cümhuriyyətin müvəqqəti hökumətinin yaradılması və müvafiq səlahiyyətlərin ona verilməsi, habelə digər tarixi əhəmiyyətli hüquqi addımlar məhz Milli Şuranın adı ilə bağlıdır.**



Milli Şura artıq buraxılmış Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvlərindən formalaşmışdı. Seymdə isə Azərbaycanı Ümumrusiya Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, eləcə də bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış deputatlar təmsil edirdi. Dolayısı ilə Milli Şura üzvləri Azərbaycan ərazisində keçirilmiş seçkilərdə bu ərazidə yaşayan əhalinin səs verib seçdiyi deputatlardan təşkil olunmuşdu və onların bu ərazidə yaşayan əhalini təmsil etmək hüququ var idi.

Nəzərə alsaq ki, Milli Şuranın təsis yığıncağında "Müsavat" və ona qoşulan bitərəf demokratlar qrupu, Müsəlman Sosialist Bloku, "İttihad" və "Hümmət" partiyaları iştirak etmişdi, deməli, bu qurum həm də o vaxtkı Azərbaycan cəmiyyətinin siyasi baxışlarını əks etdirirdi. Bu cür hərtərəfli təmsilçilik statusu isə Milli Şuraya öz seçiciləri adından çıxış edərək Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etməyə və ilk parlamentli respublika – Azərbaycan Xalq Cümhuriyyətini elan etməyə tam hüquqi əsas verirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximizi iki dövrə ayırmaq olar:

1. Milli Şura (və ya Tiflis, Gəncə və Bakı) dövrü – 1918-ci il mayın 27-dən dekabrın 7-dək davam etmişdir. Mayın 27-də təsis edilmiş Milli Şura iyunun 17-də öz fəaliyyətini müvəqqəti dayandıraraq 6 aydan gec olmayaraq Məclisi-Məbusanın çağrılması şərti ilə bütün qanunverici və icraedici hakimiyyəti müvəqqəti hökumətə vermişdi. Noyabrın 16-da isə Milli Şura öz fəaliyyətini yenidən bərpa etmiş və cəmi



4 gün sonra geniş tərkibli Məclisi-Məbusanın çağrılması haqqında qanun qəbul etmişdi.

Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nümayəndədən ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdi. Milli Şuranın elan etdiyi İstiqlal Bəyannaməsi Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır.

2. Məclisi-Məbusan (Bakı) dövrü – 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək davam etmişdir. 17 aylıq fasiləsiz fəaliyyəti dövründə parlament İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi.

Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi. Ümumilikdə, Cümhuriyyət dövründə 160 parlament iclası keçirilmişdi. Bunun 15-i Azərbaycan Milli Şurasının, 145-i isə Azərbaycan Məclisi-Məbusanın fəaliyyəti dövrünə aiddir.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin bütövlükdə fəaliyyəti daha çox ölkənin siyasi və ərazi toxunulmazlığının təmin edilməsinə, sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, elmin, təhsilin və səhiyyənin inkişafına, vətəndaşların hüquqlarının qorunmasına, dövlətin demokratik və hüquqi əsaslarının möhkəmləndirilməsinə yönəlmişdi. Bununla belə, bu dövr ərzində vətəndaşlıq, ümumi



hərbi mükəlləfiyyət, mətbuat, Milli Bankın təsisi, Bakı Dövlət Universitetinin yaradılması, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi, məhkəmə qanunvericiliyi və digər sahələr üzrə çox vacib sənədlər parlamentdə müzakirə olunaraq qəbul edilmişdi. Qadınlara da kişilərlə bərabər səsvermə hüququ verməklə Azərbaycan Xalq Cümhuriyyəti o dövrün bir çox inkişaf etmiş Avropa dövlətlərini belə qabaqlamışdı.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti öz mövcudluğu ərzində həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi həyati əhəmiyyətli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində zəngin və şərəfli iz qoymuşdur.

*Bəxtiyar ASLANBƏYLİ,*
*BDU-nun müəllimi,*
*hüquq üzrə fəlsəfə doktoru*

# Ermənistanın hərbi təcavüzü zamanı əsirlərə verilmiş işgəncələr sübuta yetirilir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 26-da davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə təqsirləndirilən şəxs Arkadi Qukasyanın müdafiəsinə yeni vəkilin qoşulduğu elan olunub. A.Qukasyan yeni vəkilinə etiraz etmədiyini bildirib.

Əvvəlcə təqsirləndirilən şəxs Madat Babayan dindirilib. O, Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Təranə Məmmədovanın suallarına cavabında Ağdərə rayonunun Qozlukörpü kəndində silahlı birləşmənin tərkibində fəaliyyət göstərdiyini, döyüş postlarına çıxdığını deyib, lakin Ağdərənin kəndlərinin işğalında iştirak etmədiyini iddia edib.

Təqsirləndirilən şəxs 1992-ci ilin fevralında Ağdərədən Xocalıya gəldiyini məhkəmədə bir daha təsdiqləyib. Dövlət ittihamçısı Fuad Musayevin onun Ağdərədən Xocalıya gəlməsinin səbəbi barədə sualına isə "Dəstək, kömək üçün gəlmişdim" cavabını verib.

M.Babayan Valerik Petrosyan, Davit Qriqoryan, Albert Qriqoryan adlı şəxsləri tanıdığını, Lambert Karapetyanın dəstəsində döyüşdüyünü, onların Kəlbəcər rayonunda azərbaycanlı əhaliyə qarşı qətliamda iştirak etdiklərini təsdiqləyib.

Daha sonra prosesdə tərcüməçinin iştirakı ilə erməni dilində videomaterial tədqiq olunub. Videomaterialda Ağdərənin "azad edilməsi"nin 19-cu ildönümü ilə bağlı "bayram tədbiri" keçirildiyi, orada həmin vaxt qondarma rejimə "rəhbərlik" edən Bako Sahakyanın, Ermənistan nümayəndələrinin və digərlərinin iştirak etdiyi göstərilir. Tədbirdə Ağdərənin işğalında iştirak etmiş keçmiş döyüşçülərə medallar və hədiyyələr təqdim olunur.

B.Sahakyan videomaterialda bildirir: "Burada veteran döyüşçüləri təltif etməyimiz o deməkdir ki, biz bütün keçmiş döyüşçüləri təltif edirik. Yəni, bu o deməkdir ki, indi bölükdə, tağımda və ya dəstədə xidmət etməsindən asılı olmayaraq, bütün iştirakçılar təltif olunur".

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualını cavablandıran M.Babayan videomaterialda medal alan şəxsin onun özü olmadığını iddia edərək deyib: "Tanımıram, o, mən deyiləm".

Təqsirləndirilən şəxs Bako Sahakyan prokurorların suallarına cavabında belə bir tədbir keçirildiyini təsdiqləyib. Lakin o, həmin tədbirdə M.Babayana medal verməsini nə təsdiq, nə də təkzib edib. B.Sahakyan vurğulayıb: "Bu sualı nəyə görə verdiyinizi başa düşürəm. Amma mən Madat Babayanla o vaxt tanış deyildim, burada tanış olmuşam".

Təqsirləndirilən şəxs Melikset Paşayan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırarkən Əsgəran rayonunun 31-ci taborunun tərkibində xidmət etdiyini bildirib. O, taborun tərkibində 1993–1994-cü illərdə Ağdam rayonunun Suma, Sarıcalı, Güllücə kəndləri istiqamətində postlarda dayandığını deyib. O, Azərbaycanın torpaqlarının işğalından sonra orada talançılıqla məşğul olub-olmaması ilə bağlı suala isə belə cavab verib: "Mən talanlarda iştirak etməmişəm. Postda növbə bitib qurtaranadək talan etməyə heç nə qalmırdı".

Təqsirləndirilən şəxs Birinci Qarabağ müharibəsində iştiraka görə qondarma rejimin "İgidliyə görə" "medal"ı ilə təltif olunduğunu da diqqətə çatdırıb və deyib: "Dəqiq xatırlamıram, ya Bako Sahakyanın, ya da Arayik Harutyunyanın dövründə idi".

Daha sonra M.Paşayanla eyni taborda olmuş təqsirləndirilən şəxs Qarik Martirosyan dindirilib. O, Baş prokurluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Fuad Musayevin suallarına cavabında müharibədə 1993-cü ildən iştirak etdiyini bildirərək deyib: "Əsgəran müdafiə rayonu"nun tərkibində idim, komandir Vitali Balasanyan idi".

O, tərkibində olduğu taborun Ağdamda yerləşdiyini də söyləyib və əlavə edib: "Tabor əvvəlcə Əsgəranın Ağbulaq kəndində yerləşirdi. Ağdam alındıqdan sonra tabor həmin rayona yerləşdirildi. Tabor komandiri Vilen Safaryan, tağım komandiri Armen idi. Bölük komandirini xatırlamıram".

Təqsirləndirilən şəxs tərkibində olduğu 31-ci taborun hərbçilərinin bir hissəsinin Ağdamın işğalında iştirak etdiyini də söyləyib, lakin özünün işğalda iştirak etmədiyini iddia edib və bildirib: "Ələ keçirilən ərazilərin müdafiəsi məqsədilə postda dururduq".

Qarik Martirosyan təltif olunduğunu da təsdiqləyib: "İgidliyə görə" medalı ilə təltif olunmuşam. Bu, ya Arkadi Qukasyanın, ya da Bako Sahakyanın sərəncamı ilə oldu".

Fasilədən sonra məhkəmə prosesi "İnsanların zorakılıqla yoxa çıxarılması, əsir və girovlara işgəncələrin verilməsi" fəsli üzrə sübutların tədqiqi ilə davam etdirilib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev bildirib ki, işğaldan azad olunan ərazilərdə məzarlıqlar aşkarlanıb. İstintaq orqanları tərəfindən məzarlıqlara baxış keçirilib. Məhkəmədə həmin baxış protokolları tədqiq edilib.

Qeyd olunub ki, Azərbaycanın suveren əraziləri azad edildikdən sonra həyata keçirilən işlər zamanı insan meyitlərinin sümükləri olan çoxsaylı kütləvi məzarlıq aşkarlanıb. Həmin ərazilərə istintaq orqanı tərəfindən baxış həyata keçirilib.

Vurğulanıb ki, əsir və girov götürülmüş şəxslərin bəziləri saxlanıldıqları yerdə işgəncə, qeyri-insani rəftar tətbiq edilməklə qəsdən öldürülüb. Həmçinin əsir və girov götürülmüş şəxslərin bir çoxu Azərbaycan dövləti və beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilmiş tədbirlər, eləcə də onların yaxın qohumlarının şəxsi təşəbbüsləri və əlaqələri ilə verilən pul müqabilində azad edilib.

Ardınca qeyd edilən fəsil üzrə zərərçəkmiş şəxs Zahid Həsənov ifadə verib. O, 1994-cü il martın 7-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində yaralandığını, martın 8-dək orada qaldığını bildirib və əlavə edib: "Martın 8-də həmin kəndə ermənilər daxil oldular və bizi - 4 yaralını əsir götürdülər. Yaralı vəziyyətdə bizi "KamAZ"la aparanda, ondan sonra isə xəstəxanada işgəncə verdilər.

Bizi Xankəndidəki 3 saylı uşaq xəstəxanasında saxladılar. Bizim əsir və girovlar, o cümlədən qadınlar və uşaqlar orada idilər. Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) də bizə baxmırdı. Komitənin Mark adlı nümayəndəsi var idi, tibbi bacısı isə Veronika idi. Mən təxminən bir ay yarım orada qalmışam. Həmin müddətdə Mark oraya iki dəfə gəldi. Nə yaramıza baxdı, nə də başqa nəsə etdi. Sonra bizi Şuşa həbsxanasına apardılar, Mark oraya ümumiyyətlə gəlmədi".

O, Xankəndidə xəstəxanada saxlanılan zaman orta məktəb şagirdlərinin müəllimləri ilə birlikdə onlara baxmağa gəldiyini söyləyib və deyib: "Bizi uşaqlara göstərib deyirdilər ki, baxın, bunlar türklərdir, sizin düşmənlərinizdir. Uşaqlar da bizə tüpürür, daş atırdılar".

Zərərçəkmiş şəxs Xankəndidə saxlanılan zaman müalicə olunmadığını bildirib və əlavə edib ki, həmin müddətdə spirtli içki və narkotik maddələr qəbul etmiş Samvel, Vrej, balaca və böyük Boryalar, Karen, Armen, Serjik adlı erməni hərbçiləri və nəzarətçiləri tərəfindən mütəmadi olaraq yara olan yerlərinə yumruq-təpik, dəmir dəyənək, avtomat silahın qundağı ilə çoxsaylı zərbələr endirilməklə amansızcasına döyülüb, müxtəlif formalarda işgəncələrə məruz qalıb. Onunla birlikdə xəstəxanada saxlanılan Qurbanov İlham Salman oğlu, Nazim, Pənah İsgəndərov, Şahbaz, İqor Əliyev, Xasay, Abdullayev Eldar İsrayıl oğlu, Tərlan, Sevil, habelə adlarını xatırlamadığı azərbaycanlı əsir-girovlara da eyni formada ağır işgəncələr verilib.

1994-cü il aprelin 28-də Xasay, Pənah İsgəndərov, İqor Əliyev və Mürşüd Məstəliyev ilə birlikdə Şuşa həbsxanasına aparılıb, orada da Emin, Karen, Qor, Vren, Albert, Sergey, habelə adlarını bilmədiyi erməni nəzarətçilər tərəfindən mütəmadi olaraq ağac dəyənək, armatur və digər küt alətlərlə amansızcasına döyülüb, soyuq kameralarda ac-susuz saxlanılıb, ağır və çirkli işlərdə zorla işlədilərək məcburi əməyə cəlb edilib. Eyni zamanda, 1994-cü il mayın 1-də Karen tərəfindən tək kameraya salınıb, üstünə bir vedrə soyuq su tökülərək ağac dəyənəklə huşunu itirənədək döyülüb. 1994-cü il mayın 8-də Azər Aslanov və Mürşüd Məstəliyev ilə birlikdə Xankəndi şəhərində üçmərtəbəli binada yerləşən təcridxanaya aparılıb, Xankəndi şəhərindəki hərbi hospitalın yaxınlığında yerləşən və Karen Babayanın komandiri olduğu 4-cü taborda hər gün ağır işlərdə zorla işlədilib.

Zərərçəkmiş şəxs əsirlikdə olduğu zaman təqsirləndirilənlərdən Bako Sahakyanı batalyonda gördüyünü, batalyon komandirinin onu qarşıladığını bildirib.

Təqsirləndirilən şəxs Bako Sahakyan isə 1992-ci ilin sonlarından və sonrakı 30 il ərzində xidməti vəzifəsinə görə əsirlərlə, girovlarla əlaqədə olduğunu bildirərək deyib: "Mən həmin o beynəlxalq təşkilatlarla, BQXK ilə əlaqədə olmuşam".

Dövlət ittihamçısı Vüsal Abdullayevin aydınlaşdırıcı xarakterli sualına isə B.Sahakyan cavab verməkdən yayınıb.

Zərərçəkmiş şəxs Zaur Gülməmmədov 1993-cü ilin fevralında Xocavənd rayonunun Nərgiztəpə yüksəkliyində gedən döyüşlərdə qarnından güllə yarası aldığını bildirib və qeyd edib: "Xəsarətdən huşumu itirdim, ayılanda gördüm ki, başqa yerdəyəm. Sonradan bildim ki, həmin yer Xocavənd rayonunun "Tək çinar" deyilən ərazisidir. Gözümü açıb yoldaşlarımı soruşmaq istəyəndə avtomatın qundağı ilə vurdular. Əvvəl Xocavənddəki "türmə"yə, sonra isə xəstəxanaya apardılar, orada əməliyyat edib gülləni çıxardılar. Yenə "türmə"yə, sonra Qırmızıbazara apardılar. Orada armatur, avtomatın qundağı ilə döyürdülər. Yediyimiz ancaq ot idi, qarın suyunu içirdik. Üç aydan sonra Andranikin ildönümündə gəldilər ki, aparırıq bunların başlarını kəsməyə. BQXK-dan nümayəndə gəldi. Ermənilər dedilər burada yaralı, ümumiyyətlə, azərbaycanlı hərbçi yoxdur. BQXK-nı aldadıb bizi öldürmək istəyirdilər.

Bizi elə yerə aparıb saxladılar ki, orada həkim yox idi. Saç-saqqalımız uzanmışdı, bədənimizi bit-birə basmışdı. Əlimizi yumağa qoymurdular. Bizimlə birgə əsir saxlanılan ağdamlı Habil var idi. Ağdamlı olduğuna görə döyə-döyə öldürdülər. Habili vəhşicəsinə döydükdən sonra gətirib üstümüzə tulladılar. Bədənində salamat yeri yox idi. Elə həmin gün can verdi. Mənim sol ayağımı üç dəfə sındırdılar. Sonra bizi Şuşaya apardılar. İşgəncələr yenidən başladı. Orada "Ovçarka" itini üstümüzə qısqırdırdılar, qolumda itin dişinin yeri qalıb (bu zaman qolunu göstərir – red.). Ağdamdan Tatar adlı oğlan var idi, onu bir həftə soyuducuda saxlayaraq dondurub öldürdülər".

O, 9 ay əsirlikdə saxlanıldıqdan sonra əsir mübadiləsi zamanı Azərbaycana təhvil verildiyini bildirib və deyib: "Hazırda sol tərəfim protezdir".

Zərərçəkmiş şəxs Əskər Əskərov Quba rayonunun Xınalıq qəsəbəsində anadan olduğunu, Kəlbəcər, Ağdərə, Laçın istiqamətlərində döyüşdüyünü bildirib. O, 1993-cü il aprelin 2-də erməni hərbçiləri tərəfindən əsir götürülüb. Zərərçəkmiş şəxsin sözlərinə görə, onu BTR-in arxasına bağlayaraq Kəlbəcər şəhərinin mərkəzi ilə dolaşdırıb, vəhşicəsinə döyüb, axşamlar dirəyə bağlayıb saxlayıb və digər işgəncələr veriblər.

Daha sonra cavan, yaşlı əsir-girovlar ilə birlikdə Ermənistanın Basarkeçər rayon daxili işlər şöbəsinin müvəqqəti saxlama təcridxanasına aparılmaqla kameralardan birində bir gün saxlanılıb. Daha sonra isə İrəvan şəhərində hərbi polisin hauptvaxtı kimi istifadə olunan yerə gətirilib. O, saxlanıldığı bütün yerlərdə yumruq-təpik, rezin dəyənəklərlə amansızcasına döyülərək işgəncələrə məruz qalıb. 1995-ci il yanvarın 15-də Bəxtiyar Tağıyevlə birlikdə Qazax rayonu ilə sərhəd ərazidən azad olunaraq Azərbaycan tərəfinə təhvil verilib.

Zərərçəkmiş şəxs Elçin Cəfərov bildirib ki, 1993-cü ilin mayında Nərimanov rayonundan hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də yerləşən hərbi hissədə xidmətə başlayıb. O, 1995-ci ilin iyununda Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb. Onu Qarakilsə rayonunda 4-5 saat saxlayıb, sonra "Niva" markalı avtomobillə İrəvan şəhərinə aparıblar. Burada isə Ermənistanın Müdafiə Nazirliyinə, sonra isə müvəqqəti saxlama yerinə gətiriblər. Orada onu 23 gün saxlayıblar. Həmin müddətdə ona işgəncələr verilib. Onu daha sonra Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin təcridxanasına aparıb, 1996-cı ilin mayınadək orada saxlayıblar. Orada başqa azərbaycanlı əsirlər də olub.

Təcridxanada saxlandıqları müddətdə ona çoxlu işgəncələr verilib. O cümlədən fasiləsiz işlədilib, dəmirlə, digər predmetlərlə döyməklə, bədənlərinə qızdırılmış dəmir parçaları basmaqla əziyyət verilib.

Ermənilər onları öz tərəflərinə keçməyə məcbur edib, buna etiraz etdikdə isə amansızcasına döyüblər. Zərərçəkmiş şəxs 1996-cı il mayın 10-da əsirlikdən azad edilib, İrəvan hava limanından o, müxtəlif yerlərdə əsirlikdə saxlanılan 67 azərbaycanlı ilə birlikdə Bakıya göndərilib.

Zərərçəkmiş şəxslər onların nümayəndələrinin, müdafiə tərəfinin və təqsirləndirilən şəxslərin də suallarını cavablandırıblar.

Məhkəmədə zərərçəkmiş şəxslər barəsindəki tibbi-ekspertiza rəyləri də elan olunub.

Məhkəmə prosesi mayın 29-da davam etdiriləcək.

***XQ***

*Təqvim yada salır*

**Əslində, ölkə əhalisinin böyük əksəriyyəti kimi, biz də Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun həmin tarixdəki uğurlu hərbi əməliyyatı barədə təfsilatı bilmirdik. Halbuki, 2016-cı ildəki Aprel döyüşlərinin, sonra Ermənistanın Tovuz istiqamətdə təxribatlarına cavab vermək üçün apardığımız əməliyyatların, nəhayət, 44 günlük İkinci Qarabağ müharibəsinin bəlkə də hər saatı barədə ölkə ictimaiyyətinə təfərrüatı ilə məlumat verilirdi.**

# İşğalçıya verilən "Günnüt dərsi"

## *Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun uğurlu əməliyyatından 7 il ötür*

2018-ci il mayın 20-də başlanıb 27-də başa çatmış Günnüt əməliyyatı barədə xeyli sonra məlumat aldıq. Xatırladaq ki, Günnüt Şərur rayonunda kənd adıdır. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Əməliyyata gəlincə isə rəsmi məlumat belədir: 2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında baş vermiş Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında hərbi münaqişə tarixə "Günnüt əməliyyatı" adı ilə düşüb.

Həmin bir həftə ərzində Əlahiddə Ümumqoşun Ordusunun əks-hücumu nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları azad olunub, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun nəzarəti altına keçib. Məlumatda bildirilir ki, döyüşlər nəticəsində, ümumilikdə, 11 min hektar ərazi işğaldan azad olunub. Əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan – Yeğeqnadzor – Gorus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı verib. Hərbi əməliyyatlar zamanı Azərbaycan Silahlı Qüvvələrinin 1 əsgəri həlak olub, Ermənistan tərəfdə də itki çox olmayıb.

Prezident İlham Əliyev 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Günnüt əməliyyatı barədə məlumat verdi. Dövlət başçımız həmin müsahibəsində xatırlatdı ki, Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib: "Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və bu ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də bəzi qabaqcıl ölkələrin texnikasından üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur".



Prezident bildirdi ki, Günnüt əməliyyatı Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdiyinə görə, yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışırdı. Azərbaycan da faktın üstünü vurmadı: "Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, onları əldə etdik".

Dövlət başçısının fikrincə, İkinci Qarabağ müharibəsində də Naxçıvan Ordusunun hərbçiləri fəal iştirak ediblər. Muxtar Respublikadan gətirilən silah-sursat və texnikadan cəbhədə istifadə olunub: "İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda, mən onu da bildirməliyəm, yəni, artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi Bakıya gətirilmişdi və cəbhə bölgəsinə göndərilmişdi".

Ekspertlərin fikrincə, Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərirdisə, Günnüt əməliyyatı Silahlı Qüvvələrimizin nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiqləyirdi. 2020-ci ilin sentyabrından əvvəlki döyüşlərdə təcrübə qazanan qəhrəman əsgərlərimiz, zabitlərimiz Vətən müharibəsində, sadəcə, düşmənə aman vermədən onları cəmi 44 gün ərzində məğlubiyyətə uğratdılar.

Bu zaman xüsusilə xatırladılmalı məqamlardan biri də odur ki, Prezident, Ali Baş Komandan İlham Əliyev Günnüt əməliyyatından dörd gün əvvəl – 2018-ci il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" saylı hərbi hissəsində yaradılan şəraitlə, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olmuş və Naxçıvanda ordu quruculuğu istiqamətində görülən işləri yüksək qiymətləndirmişdi. Dövlətimizin başçısı Naxçıvan Ordusunun böyük qüvvəyə malik olduğunu və düşmənin istənilən təxribatının qarşısını ala, eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə biləcəyini qeyd etmişdi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu bundan cəmi dörd gün sonra Ali Baş Komandanın etimadını doğruldaraq, Günnüt əməliyyatını uğurla həyata keçirdi.

Etibarlı mənbələrin verdiyi məlumata görə, Günnüt əməliyyatından sonra işğaldan azad olunan ərazilərin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometrdən artıq yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar bərpa edilib.

Günnüt zəfəri, Aprel və Tovuz döyüşləri, nəhayət, Vətən müharibəsində şanlı Qələbəmiz Azərbaycanda mövcud olan Xalq – Dövlət – Ordu birliyinin möhtəşəmliyini ortaya qoydu. Bu faktlar xalqımıza və ordumuza iftixar gətirən parlaq səhifələrdir. Digər mühüm amil isə ondan ibarətdir ki, Günnüt əməliyyatındakı qələbəmiz, Azərbaycan hərbçilərinin göstərdiyi peşəkarlıq Ermənistan ordusunun şəxsi heyətinin vahiməyə düşməsinə səbəb oldu.

Sonda xüsusilə qabartmaq istədiyimiz digər fakt ondan ibarətdir ki, keçmiş məcburi köçkünlərimizin işğaldan azad edilmiş ərazilərə qayıdışı gündən-günə daha böyük vüsət alır. Bu isə təkcə ölkəmizin iqtisadi imkanlarından xəbər vermir. Bu fakt həm də ordumuzun gücü və qüdrəti sayəsində hər bir vətəndaşımızın rahat, sabitlik şəraitində yaşadığının göstəricisidir. Prezidentin dediyi kimi, Azərbaycan Ordusunun hər bir əsgər və zabiti milli dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasında, eləcə də, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifəsini şərəflə yerinə yetirir.

***İttifaq MİRZƏBƏYLİ***

**İlyas Əfəndiyev – 111**

# XX əsrin bədii salnaməsini yaratmış ustad sənətkar



**Mayın 26-da XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı-dramaturq İlyas Əfəndiyevin anadan olmasının 111 illiyi tamam oldu. Zəngin bədii yaradıcılığı ilə çoxəsrlik ədəbiyyat xəzinəmizə misilsiz töhfələr bəxş etmiş, həm ölkəmizdə, həm də xarici ölkələrdə geniş şöhrət qazanmış ölməz sənətkarımızın bədii irsi müasir dövrümüzün bədii salnaməsidir.**

82 illik ömrünün 60 ildən çoxunu bədii yaradıcılığa həsr etmiş, ədəbiyyatın bir çox janrında dəyərli əsərlər yaratmış ustad sənətkarımızın uzunömürlü, aktuallığını, müasirliyini və bədii təravətini itirməyən əsərləri xalqımızın söz xəzinəsinin qiymətli inciləridir. İlyas Əfəndiyev minillik Azərbaycan bədii mədəniyyətinin, türk-müsəlman təfəkkürünün ən yaxşı ənənələrini yeni epoxada davam etdirərək, mənəviyyatımızın zirvəsinə yüksəldi. O, ədəbiyyatımızda – nəsrdə və dramaturgiyada lirik-psixoloji üslubun banisi, öz rejissor və aktyor məktəbi olan "İlyas Əfəndiyev teatrı"nın yaradıcısı kimi əbədi şöhrət qazandı.

Bütövlükdə, sənətkarın bədii yaradıcılığı xalq təfəkkürünün zəngin xəzinəsi üstündə yaranmışdır. Onun yaradıcılığında müasirlik əsərlərinin ideya-məzmununda, yaratdığı obrazların dünyagörüşündə, mənəvi-əxlaqi aləmində özünü göstərir. "Dağlar arxasında üç dost", "Söyüdlü arx", "Körpüsalanlar", "Üçatılan", "Geriyə baxma, qoca", "Sarıköynəklə Valehin nağılı" kimi romanlardakı Sarıköynək, Sərvinaz, Səkinə, Şəriyyə, Yaqut, Qızyetər və s. qadın obrazları İlyas Əfəndiyevin çoxsaylı obrazlar qalereyasında xüsusi yer tutur.

Yaradıcılığı boyu yalnız qəlbinin səsinə qulaq asan yazıçı yazırdı: "Uzaq və yaxın dünənimizə, milli-mənəvi mənliyimizə mən heç vaxt direktivlərin, proqramların, ayrı-ayrı dövlət rəhbərlərinin iradəsinin və istəyinin tələbi ilə yanaşmamışam". Akademik Bəkir Nəbiyev haqlı qeyd edirdi: "İlyas Əfəndiyevin əsərləri azərbaycançılığın, ilk növbədə, məhz ədəbi, milli-mənəvi dəyərlər, yüksək bəşəri ideallar işığında təqdimindən və tərənnümündən ibarətdir ".

Xalq yazıçısı İlyas Əfəndiyev dərin psixoloji tapıntılarla zəngin olan dramları ilə teatr sənətimizdə yeni bir mərhələ acdı. Dramaturqun "İntizar", "İşıqlı yollar", "Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Bağlardan gələn səs", "Xurşidbanu Natəvan", "Büllur sarayda", "Şeyx Məhəmməd Xiyabani", "Bizim qəribə taleyimiz", "Sevgililərin cəhənnəmdə vüsalı", "Tənha iydə ağacı", "Ağıllılar və dəlilər", "Odlu səhradan gəlmiş şeytan", "Bizə inan", "On manatlıq lüstr", "Hökmdar və qızı" kimi 22 pyesindən 19-u Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulub və çağdaş teatrımızın inkişafına güclü təsir göstərib.

Yüksək ideya-bədii səviyyəsinə, tarixi hadisələrin real təsvirinə və müvəffəqiyyətli səhnə təcəssümünə görə, dramaturqun "Xurşidbanu Natəvan" əsəri həm oxucuların, həm də tamaşaçıların dərin marağına səbəb oldu. Ümummilli lider Heydər Əliyev "Xurşidbanu Natəvan" pyesinin uğurlu tamaşasına baxdıqdan sonra öz fikirlərini dramaturqa bildirərək demişdir: "Natəvanı gözəl Azərbaycan qadını kimi bizə təqdim elədiniz, bununla yanaşı, gözəl xan qızının timsalında siyasi baxımdan və onun xan qızına layiq hərəkətləri ilə bizim Şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə sizə sağ ol deyirəm. Mən son monoloqunuza görə sağ ol deyirəm".

Yarım əsrdən artıq bir dövrdə milli teatrı öz çiyinlərində saxlamış qüdrətli qələm sahibinin dram əsərləri bu gün də səhnədə öz estetik təravətini, aktuallığını və müasirliyini qoruyub saxlayır. Sovetlər dönəmində yazıçı istər nəsr , istər də dram əsərlərində azadlığımızı, müstəqilliyimizi, mühacirət və repressiya mövzularını böyük cəsarətlə ədəbiyyatımıza gətirdi. 90-cı illərdə dramaturqun pyesləri Türkiyənin Ankara, Ərzurum, Sivas, Kayseri şəhərlərində də nümayiş etdirilib.

Xalq yazıçısının həm nəsri, həm də dramaturgiyası Azərbaycan kinematoqrafiyası üçün zəngin bədii material vermək qüdrətinə malikdir. Ədibin romanları, xüsusilə, "Sarıköynəklə Valehin nağılı", "Üçatılan" və "Geriyə baxma, qoca" əsərləri bir neçə bədii filmə sığacaq material verməyə qabildir. Fikrimizcə, dramaturqun nəsrinin və dramaturgiyasının ekranlaşdırılması böyük bir tarixi zaman kəsiminin bədii materialda öyrənilməsi deməkdir. Bütövlükdə, ustad sənətkarın bədii iris həm də yaşadığı mürəkkəb zəmanənin salnaməsdir.

İlyas Əfəndiyev milli mədəniyyətimizə həsr etdiyi nəzəri-estetik məqalələri öz aktuallığı, məna tutumu ilə seçilir. Yazıçı həmin əsərlərində teatr və səhnə sənəti ilə bağlı bir sıra aktual problemlərə, o cümlədən dramaturq və teatr, rejissor sənəti, teatr tənqidi, aktyor ifası, tamaşanın məşqi, səhnə texnikası, rol bölgüsü, tamaşanın musiqisi və bədii tərtibatı kimi məsələlərə münasibət göstərmiş, fikir və arzularını bildirmişdir. "Teatr xalqın ən incə duyğularını, romantik xəyallarını, sevincini, dərdini, arzularını ifadə edir, xalqın teatrı onun milli mədəniyyətinin təntənəsidir" – deyən mütəfəkkir sənətkarın bu səpkili məqalələri milli dramaturgiyaya yeni baxış, duyum və üslub gətirdi. İlyas Əfəndiyevin teatr və səhnə haqqındakı nəzəri-estetik görüşləri bugünkü teatrşünaslıq elmi üçün də böyük əhəmiyyət kəsb edir.

Yazıçı milli-mənəvi dəyərlərimiz haqqında düşünərkən babalarımızın vaxtilə müqəddəs saydıqları namus ənənələrinin yanından sükutla keçə bilmir: "Bizim milli namusumuz hər dövrdə, hər bir çətinlikdə xalqımızın mənəvi dayağı olub. Milli namus yalnız ər-arvad məsələlərinə aid olmayıb. Atalarımız milli namus dedikdə, Vətən, millət namusu, qonum-qonşu təəssübü, böyük-kiçiyə hörmət və izzət haqqında düşünüblər".

Unudulmaz sənətkarımız İlyas Əfəndiyevin ən böyük arzusu Azərbaycanın müstəqilliyi idi. O, öz yaradıcılığında azadlığımızı, milli suverenliyimizi və istiqlalımızı həmişə tərənnüm edirdi. Müdrik sənətkar sağlığında bu arzusuna çatdı. Ancaq Qarabağın və doğulduğu Füzuli şəhərinin erməni faşistləri tərəfindən işğalı ona böyük dərd oldu. Qəlbində Qarabağ nisgili, Qarabağ düyünü ilə dünyadan köç edən unudulmaz sənətkarımızın nigaran ruhu şaddır. 44 günlük Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi, dəmir yumruğu, müzəffər ordumuzun şücaəti, igid və yenilməz şəhidlərimizin və qazilərimizin fədakarlığı nəticəsində Qarabağ erməni işğalçılarından azad edildi.

Ümid edirik ki, erməni vandallarının ölməz sənətkarın Füzulidə yerlə-yeksan etdiyi ata yurdunda ev-muzeyi yaradılacaq, dərs dediyi orta məktəbə və Füzuli Dövlət Dram Teatrına Xalq yazıçısı İlyas Əfəndiyevin adı veriləcək.

***Vəfa XANOĞLAN,***
***Azərbaycan Universitetinin müəllimi, sənətşünaslıq doktoru***

**"Xarıbülbül" VIII Beynəlxalq Musiqi Festivalı**

# Azad Şuşanın çal-çağırlı günləri



**Mədəniyyət beşiyimiz Şuşa yenidən azad, nəğməli günlərinin rəmzi olan möhtəşəm bayram atəşfəşanlığına bülənd olmuşdu. İki gün idi ki, orada Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Xarıbülbül" VIII Beynəlxalq Musiqi Festivalı ətraf dağlara əks-səda salmışdı.**

Ötən şənbə keçirilmiş yaddaqalan açılış mərasimindən sonra ənənəvi festivalın çal-çağırlı bayram proqramı təqdim olunub. Müxtəlif ölkələrdən gələn ifaçıların iştirakı ilə açılış konserti olub, sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin ifasında Üzeyir Hacıbəylinin felyetonlarından ilhamlanaraq hazırlanan "Babalı Sərvərin boynuna" adlı teatr tamaşası nümayiş olunub.

Eyni zamanda, bu il ölkəmizdə 2-ci dəfə keçirilən Uşaq İncəsənət Festivalının (UİF) xüsusi zonasında bu tədbirin ilk qalibləri öz istedad və bacarıqlarını nümayiş etdiriblər. 20-dən artıq qaliblə bərabər, Şuşada yaşayan uşaqlar, şəhər sakinləri və qonaqlar üçün xüsusi, interaktiv şərait yaradılıb. Səhnəyə çıxmaq istəyən hər kəsə belə bir imkan verilib. Zəka oyunları, interaktiv əyləncələr və yaradıcı fəaliyyət sahələri uşaqların böyük marağına səbəb olub. Festival atmosferini gücləndirən çadırlarla qurulmuş düşərgə prototipi və promo məhsulların təqdimatı hamıya unudulmaz anlar yaşadıb. Axşam saatlarında ocaq başında bir araya gələn iştirakçılar, şeir, musiqi və nağılvari çıxışlarla günü unudulmaz xatirəyə çeviriblər. Festivalın mənəvi kulminasiya nöqtəsi "Mədəniyyət səninlə tanınır!" mesajı ilə qoyulub.

Bazar günü isə "Xarıbülbül" festivalı Cıdır düzündə Qarabağ Universitetinin incəsənət fakültəsinin tələbələrinin ifasında Azərbaycan və xarici bəstəkarların əsərlərindən ibarət musiqi proqramının təqdimatı ilə davam edib. Universitetin rektoru Şahin Bayramov jurnalistlərə açıqlamasında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, qəhrəman zabitlərimizin, əsgərlərimizin fədakarlığı, şəhidlərimizin axan qanı sayəsində Şuşada növbəti dəfə "Xarıbülbül" bayramının keçirildiyini deyib. Bildirilib ki, işğaldan azad olunmuş torpaqlarda ölkə rəhbərinin sərəncamı ilə yaradılmış Qarabağ Universitetinin bu festivalda ilk dəfə iştirak etməsinin xüsusi önəmi var.

Universitetin Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının müdiri Gülşən Qasımzadə və İnstrumental ifaçılıq kafedrasının müdiri, tarzən Arslan Növrəsli təhsil ocağının cəmi bir il ərzində möhtəşəm yekun konsertlə "Xarıbülbül" Festivalında çıxış etməsindən qürur duyduğunu dilə gətiriblər. Qeyd edək ki, bu cür festivallar gənc nəsildə milli-mənəvi dəyərlərə bağlılığı daha da gücləndirir, onların tariximizi, mədəni irsimizi daha dərindən mənimsəməsinə və bu dəyərləri gələcək nəsillərə ötürmək məsuliyyətini dərk etməsinə şərait yaradır.



Festival çərçivəsində 140 yaşını qeyd etməyə hazırlaşdığımız dahi bəstəkar Üzeyir Hacıbəylinin adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə görkəmli müğənni və bəstəkar, Xalq artisti, Milli Məclisin deputatı Polad Bülbüloğlunun konserti keçirilib. Orkestrə ünlü sənətkarın oğlu Murtuza Bülbül dirijorluq edib. İlk olaraq səhnədə Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında dahi bəstəkar Üzeyir Hacıbəylinin "Cəngi" rəqsi nümayiş olunub. Sonra Polad Bülbüloğlunun ifasında müxtəlif əsərlər səslənib.

Daha sonra Xalq artisti Mənsum İbrahimovun ifasında muğam və xalq mahnılarımız təqdim olunub. Dalğa-dalğa ətrafa yayılan musiqi sədaları Şuşanın təmiz nəfəsi kimi könülləri ehtizaza gətirib.

Xatırladaq ki, "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda, Bərdə və Ağcabədidə təşkil edilib. Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra festival yenidən doğma məkanına – Şuşaya qayıdıb. Bayramı izləyən hər kəsdə "Xarıbülbül"ün artıq hər il özünün əbədi ünvanından dünyaya sülh və mədəniyyət ismarıcları yayacağı qənaəti daha da güclənib.

***Ə.DOSTƏLİ***
***XQ***

# IV Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı

## Dostluq və qardaşlığın söz bayramı



**Elmlər Akademiyasının əsas binasının önündəki parkda Beynəlxalq Türk Müəllifləri Birliyinin (BTMB) təşkilatçılığı ilə IV Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı davam edir.**

Türk dövlətləri arasında mədəni-ədəbi əlaqələrin daha da möhkəmlənməsinə töhfə olan festivalın hər günü bir ölkəyə – Qırğızıstan, Özbəkistan, Macarıstan, Qazaxıstan, Türkiyə, Türkmənistan və Şimali Kipr Türk Respublikalarına həsr olunur.

Kitab bayramı şeir saatları, müzakirələr, kitab təqdimatları, konfranslar, konsert proqramları, film nümayişləri, yubiley məclisləri ilə zəngindir. Eyni zamanda, müxtəlif nəşriyyatların yeni kitabları və əl işləri alıcılara təqdim edilir.

Bayramın ilk günləri Qırğızıstan və Özbəkistan ədəbiyyatı ilə şərəflənib. 3-cü gündə iştirakçılar Macarıstan ədəbiyyatına həsr olunmuş panel müzakirəsinə qatılıblar. Ramil Əhməd və Rəna Cahangirlinin moderatorluğu ilə keçən paneldə Macarıstan ədəbiyyatının zənginliyi, müxtəlifliyi və çağdaş dövrdə aktuallığı sərf-nəzər edilib. Azərbaycan və Macarıstanın ədəbi mühitinin nümayəndələri çıxışlarında bildiriblər ki, tarixi kökləri olan iki dövlət arasında mədəni əlaqələrin inkişafı, ədəbi mübadilə üçün qarşılıqlı tərcümələrin olması çox böyük əhəmiyyət kəsb edir. Həmçinin növbəti festivala qədər ortaq antologiyanın yaradılması təklif olunub. Tədbirdə macar şairlərinin şeirləri hər iki dildə səsləndirilib.

…Xalq şairi Ramiz Rövşənin imza saatı xüsusilə maraqlı keçdi. O, sakit, amma qətiyyətli səslə dedi: "Kitab sevgisi heç vaxt tükənməyən bir sevgidir. Mən o fikirdəyəm ki, kitabla ünsiyyət tamam başqa bir dünyadır". – Bu sözlər gənclərin üzündə dərin bir təsir buraxdı və ədəbi festivalın ruhunu ən gözəl şəkildə ifadə etdi. Sonra sevimli şair oxucularının suallarını cavablandırdı, kitablarına avtoqraflar yazdı. Ramiz Rövşən şeirləri səsləndi və hər kəs, sanki, ədəbiyyatın işığında, poeziya qanadlarında yeni dünyalar kəşf etdi.

Ədəbiyyat və Kitab Festivalı çərçivəsində qırğız şairi Gülsaira Möminovanın və bizim unudulmaz şairimiz Nurəngiz Günün xatirəsinə həsr olunmuş "Gül dəftəri" adlı poeziya paneli də yaddaqalan oldu. Panelə şair Naringül Nadir moderatorluq edirdi. Paneldə müasir Azərbaycan poeziyasının xanım nümayəndələrindən Gülnarə Cəmaləddin, Gülşən Behbud, Aysel Xanlarqızı, Aypara Ayxan, Arzu Murad və Ülviyyə Niyazqızı çıxış etdilər. Onlar həm öz poetik nümunələrini, həm də Nurəngiz Günün qələmə aldığı şeirləri oxudular. Ədəbi diskursun poeziya üzərindən aparılması tədbir iştirakçılarına dərin hisslər yaşatdı.

Nurəngiz Günün qızı – Milli Məclisin deputatı Jalə Əliyeva tədbirin təşkil olunmasında əməyi keçənlərə təşəkkürünü bildirdi. O, eyni zamanda, sözügedən festivalın təkcə kitabın və ədəbiyyatın deyil, həm də Türk dünyasının ortaq ruhunun, birliyinin bayramı olduğunu diqqətə çatdırdı.

**Festivalın təşkilatçısı Beynəlxalq Türk Müəllifləri Birliyinin sədri Xəyal Rza XQ-yə açıqlama verdi:**

– Ümumiyyətlə, gördüyünüz kimi, festivalın proqramı olduqca cəlbedicidir. Bütün türksoylu ölkələrdən, o cümlədən Macarıstandan 20-dən çox tanınmış alim və qələm adamı qonağımızdır. Festivalda endirimli kitablar, sərgi və satış yarmarkaları var. Sərgidə yerli müəlliflərlə bərabər, bütün türk dünyası ədiblərinin əsərlərinə rast gəlmək mümkündür. Azərbaycana həsr ediləcək xüsusi gün mayın 28-nə – Müstəqillik Gününə təsadüf edəcək. İyunun 1-də isə Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə I Türk Dünyası Uşaq Festivalı keçiriləcək.

Satışa çıxarılan kitabların qiymətlərinə gəlincə, festival boyunca çoxsaylı endirimlər və xüsusi təkliflər diqqət çəkir. Əksər pavilyonlarda kitablar satış qiymətlərindən 15–30 faiz endirimlə təqdim olunur. Bu, oxucular üçün böyük fürsətdir. Uşaqlar üçün nəzərdə tutulan kitablar, yeni çıxmış əsərlər, hətta klassik ədəbiyyat nümunələri əlçatan qiymətlərlə alıcı tapır. Bu, həm də daha geniş auditoriyanın kitaba yaxınlaşmasını təmin edən önəmli amildir.

Festival Azərbaycanın Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY və digər qurumların təşkilati dəstəyi ilə keçirilir.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Yeni kitablar**

# "Altmışıncılar nəsrinin poetikası"

**Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədlinin "Altmışıncılar nəsrinin poetikası" monoqrafiyası Azərbaycan ədəbiyyatında mühüm bir mərhələnin – 1960-1990-cı illər dövrünün bədii nəsrinin, xüsusilə də povest janrının elmi-nəzəri baxımdan dərin təhlilinə həsr olunmuş əhəmiyyətli tədqiqat əsəridir. Müəllif monoqrafiyada "altmışıncılar" kimi tanınan ədəbi nəslin yaranmasını, inkişaf yollarını, bədii-estetik prinsiplərini və Azərbaycan nəsrinə gətirdikləri yenilikləri sistemli şəkildə araşdırır.**

Cahangir Məmmədli "altmışıncılar" anlayışını dövrün ictimai, mədəni və estetik reallıqları kontekstində təqdim edir, xüsusilə povest janrının bu dövrdəki inkişafını detallı şəkildə analiz edir. Monoqrafiyada müəllif ədəbi-tarixi və poetik analiz metodlarından istifadə edərək dövrün povestlərini təkcə mətn səviyyəsində deyil, həm də sosial-mədəni kontekstdə təhlil edir. Professor altmışıncıların yaradıcılığını sovet ideologiyası çərçivəsindəki ziddiyyətlər fonunda dəyərləndirir və onların yazı üslubunda bu ziddiyyətlərin necə poetik ifadə tapdığını göstərir.

"Altmışıncılar nəsrinin poetikası" monoqrafiyası Azərbaycan ədəbiyyatında mühüm mərhələlərdən birinin – sovet dövrünün son otuz ilində formalaşan yeni bədii düşüncə tərzinin sistemli və obyektiv tədqiqinə mühüm töhfə verir. Cahangir Məmmədlinin bu əsəri, yalnız ədəbi tənqid və elmi araşdırma üçün deyil, həm də Azərbaycan ədəbiyyatını öyrənən tələbə və müəllimlər üçün qiymətli bir mənbədir.




Nəfis tərtibatlı monoqrafiya "Mumta Yayımları"nın nəşridir. Kitaba AMEA-nın müxbir üzvü Təhsin Mütəllibov və dosent Ələmdar Cabbarlı rəy verib.

***XQ***

*Beynəlxalq həyat*

# Aşqabad nəqliyyat sazişi: İrəvanın məkrli siyasi manevrləri




**Dünyada iri tranzit və nəqliyyat yolları uğrunda mübarizə özünün ən kəskin mərhələsinə daxil olub. Səbəb bəllidir: nəhəng qlobal layihələrin iştirakçısı olmaqla, ölkələr yeni bazarlara çıxış imkanları əldə edə biləcəklər. Təbii ki, xalqının tərəqqi və rifahını düşünən hər bir dövlət bunu arzulayır və bu istiqamətdə ciddi səylər ortaya qoyur.**

Məlumat üçün bildirək ki, Aşqabad sazişi 2016-cı ildə qüvvəyə minib. 2013-cü ildə Qətər sazişdən çıxdığını elan edib və 2 ildən sonra müsbət cavab alıb. 2016-cı ilin noyabrında Pakistan, iki il sonra, yəni 2018-ci ildə Hindistan sazişə qoşulublar. Qeyd etmək lazımdır ki, Aşqabad sazişinin iştirakçıları hazırda öz fəaliyyətlərini, ilk növbədə Şimal-Cənub nəqliyyat dəhlizi ilə uzlaşdırmağa çalışırlar.

Sənədi imzalayan ölkələr artıq 2013-cü ildən bir hissəsi təhvil verilən Türkmənistan-Əfqanıstan-Tacikistan dəmir yolundan, 2014-cü ildən Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı avtomobil yollarından, eləcə də Avropa İttifaqı və 14 Şərqi Avropa ölkəsini birləşdirən TRACEKA nəqliyyat dəhlizindən istifadə etməyi planlaşdırırlar.

Bu arada İran rəsmiləri qonşu ölkələrə Bəndər-Abbasda müstəqil liman təşkilatları yaratmağı təklif ediblər. Tehran-Aprin quru limanının açılışı zamanı Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Seyid Əbdülrəsul Mohacer Hicazi deyib ki, İran öz tranzit imkanlarını nəzərə alaraq, regional ölkələri birləşdirən logistika mərkəzinə çevrilə bilər. Hicazinin sözlərinə görə, bir neçə qonşu dövlət, o cümlədən açıq dənizə çıxışı olmayan Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri İran nəqliyyat şəbəkələri vasitəsilə Bəndər-Abbasa daxil ola bilərlər.

Bu il mayın 8-də Ermənistan İran, Türkmənistan, Özbəkistan, Qətər və Oman arasında 14 il əvvəl Aşqabadda imzalanmış beynəlxalq tranzit və nəqliyyat dəhlizinə qoşulmağa qərar verib. Ermənistan rəsmiləri bir müddət əvvəl bəyan ediblər ki, İrəvanın əsas niyyəti geniş Avrasiya məkanında nəqliyyat əlaqələrini gücləndirmək və bu çərçivədə "Şimal-Cənub" dəhlizi vasitəsilə yeni alternativ yollar yaratmaqdır.

Lakin yuxarıda qeyd etdiyimiz kimi, hazırkı mərhələdə Ermənistanın bu sazişə daxil olması, sadəcə iqtisadi və logistika ilə izah edilə bilməz. Ekspertlərin fikrincə, Ermənistanın bu nəqliyyat dəhlizində iştirakı, ilk növbədə, iqtisadi və logistik maraqlardan daha çox, siyasi hədəflərdən qaynaqlanır.

Belə bir məqamı da nəzərdən qaçırmaq olmaz ki, sözügedən sazişin iştirakçıları arasında Hindistan və Pakistan kimi bir-birilə açıq rəqabət və düşmənçilik münasibətində olan ölkələr var. Hazırda bu iki dövlət arasında hərbi qarşıdurma təhlükəsi nisbətən səngisə də, münaqişənin yenidən alovlanmayacağına heç kim zəmanət verə bilməz.

Belə bir daim artan hərbi-siyasi fon şəraitində Ermənistanın sazişə daxil olması, ya regiondakı gərginliklərə bələd olmamaqdan, ya da bilərəkdən bu gərginliklərdən geosiyasi qazanc əldə etməyə çalışmasından xəbər verir. Bu isə Ermənistanın siyasi məsuliyyətsizliyinin və qlobal güclər arasında təhlükəli oyuna girişdiyinin göstəricisidir.

Dehli isə İrəvandan Cənubi Qafqazda öz geosiyasi niyyətlərinə çatmaq üçün istifadə etməyə çalışır. Hindistanın Ermənistana silah satması, hərbi əməkdaşlığı gücləndirməsi, əslində, regionda balansın pozulmasına xidmət edən amillərdir. Belə olan halda, Ermənistanın Hindistanın da daxil olduğu Aşqabad sazişinə qoşulması bu əlaqələrin daha da dərinləşdirilməsi üçün istifadə edilə bilər. Bu isə təkcə Azərbaycan üçün deyil, regiondakı digər ölkələr üçün də təhdid yarada bilər.

Digər tərəfdən, Ermənistanın bu addımı Cənubi Qafqazda yeni bir qarşıdurma xəttinin yaranmasına zəmin yaradır. Çünki Pakistan Ermənistanı dövlət kimi tanımır və bu ona qarşı hər zaman sərt mövqedə dayanıb. Ermənistanın daxil olduğu layihədə Pakistanla təmas ehtimalı nəzəri baxımdan belə regionda gərginliyi artırır. Ermənistan hakimiyyəti bu addımla həm də Azərbaycan-Pakistan ittifaqına qarşı bir növ "alternativ cəbhə" formalaşdırmağa cəhd edir. Lakin bu, strateji baxımdan yanlış və perspektivsiz yoldur. Ermənistan bu yolla nə tranzit üstünlük qazana, nə də regionda sülhə töhfə verə bilər.

Hayların daxil olmaq istədiyi Aşqabad sazişində real logistika baxımından da ciddi suallar var. Ermənistanın nə regional nəqliyyat infrastrukturunda, nə də Avrasiya dəhlizlərində faktiki çəkisi var. Ölkənin nə dəmir yolları, nə də magistral şəbəkəsi bu cür layihələrin icrasına hazırdır. Bu isə onu göstərir ki, İrəvan rəhbərliyinin qərarı nəinki praktik məna, daha çox siyasi simvolizm daşıyır.

Nəticə etibarilə, Ermənistanın Aşqabad sazişinə qoşulması məsuliyyətsiz, hesablanmamış və regional sabitliyi pozmağa xidmət edən addımdır. Bu cür siyasət nə Ermənistanın iqtisadiyyatını gücləndirə, nə də onu regional oyunçuya çevirə bilər. Əksinə, bu manevr Ermənistanı daha da təcrid olunmuş vəziyyətə salmaq riski daşıyır.

Müstəqil Azərbaycanın isə tranzit və nəqliyyat imkanları nəzərəçarpacaq dərəcədə böyükdür. Ölkəmizin ərazisində fəaliyyət göstərən avtomobil, dəmir yolu və dəniz limanları infrastrukturu ikitərəfli və beynəlxalq qanunlar çərçivəsində bütün dost və tərəfdaş ölkələr üçün açıqdır. Azərbaycandan fərqli olaraq Ermənistan və onun havadarlarından olan İranın bəzi ekspertləri, nəqliyyat dəhlizləri məsələsinə siyasi don geyindirməyə cəhd edir.

Məsələn, iranlı ekspert Əhsən Movahədian bu günlərdə Ermənistan mətbuatına verdiyi açıqlamada bildirib ki, Ermənistanın bu platformaya qoşulması onun "Ankara-Bakı oxunun təzyiqindən qurtulması" üçün şans yaradır. Qonşu ölkənin ekspertinin bu fikri həqiqəti əks etdirmir, nə Azərbaycan, nə də Türkiyə dövlətlərinin heç bir ölkəni, eləcə də Ermənistanı təhdid etmək etmək, ona təzyiq göstərmək niyyətləri var.

Azərbaycan bölgədəki tranzit marşrutlarının əsas təşəbbüskarlarından biridir və regionda kommunikasiyanın açılması təşəbbüslərinə daim konstruktiv mövqe sərgiləyir. Bakı "Zəngəzur dəhlizi" ideyasını təqdim edərkən, əsas hədəfi Cənubi Qafqazın nəqliyyat xəritəsini yenidən formatlamaq və Avrasiya yükdaşımalarında rolunu artırmaq idi. Ermənistan isə bu layihəni dəfələrlə əngəlləyərək, əvəzində "Sülh yox, diversiya" siyasəti ilə çıxış edir.

İran tərəfi son zamanlar Ermənistanla iqtisadi və siyasi əlaqələri gücləndirməkdə maraqlı olduğunu nümayiş etdirir. Lakin bu yaxınlaşma, əslində, Ermənistanın vasitəsilə bölgədəki Türk birliyi layihələrinə qarşı alternativ təsir zonasının qurulması məqsədinə xidmət edir. İranlı ekspertin "Ermənistan İrana güvənərək geosiyasi blokadadan çıxacaq" fikri bir illüziyadan başqa bir şey deyil. Çünki İranın Aşqabad sazişi vasitəsilə təklif etdiyi "Şimal-Cənub" marşrutu nə siyasi baxımdan stabil, nə də iqtisadi baxımdan səmərəlidir.

Bundan başqa, Ə.Movahədian Ermənistanın "Dünyanın kəsişməsi" adlı təşəbbüsünü də tərifləyərək göylərə qaldırıb. Bu təşəbbüs faktiki olaraq regiondakı geosiyasi reallıqlara uyğun gəlmir. Bu layihənin Şərq-Qərb hissəsinin "Bakı tərəfindən sabotaj" iddiası ilə izah edilməsi isə yalnız Ermənistanın sülh sazişindən imtina etməsini ört-basdır etmək cəhdidir. Halbuki Azərbaycan tərəfi sülh danışıqlarına açıq şəkildə dəstək verir və Ermənistanda konstitusiya dəyişiklikləri məsələsində beynəlxalq hüquq normalarını əsas götürür.

Azərbaycanın mövqeyi aydındır: sülh olmadan əsl tranzit sabitliyi mümkün deyil. Ermənistan tərəfindən alternativ yollarla bu sülh prosesindən yayınmaq və özünə "dost" hesab etdiyi dövlətlər vasitəsilə təzyiq mexanizmi qurmaq cəhdləri heç bir real nəticə verməyəcək. Regionda sabit kommunikasiya infrastrukturu yalnız qarşılıqlı anlaşma və etimad mühitində qurula bilər.

Ermənistan on illərlə yürütdüyü təcavüzkar siyasətdən böyük zərər çəkib. Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti Ermənistan iqtisadiyyatına ağır zərbə vurub. Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı olması Ermənistanı hər keçən il bataqlığa sürükləyir. Ermənistan anlamalıdır ki, üz tutduğu Avropa ölkələrindən onun üçün nicat yolu yoxdur. Yeganə xilas yolu region ölkələri ilə sülh əmin-amanlıq şəraitində yaşamaq, yaxın siyasi-iqtisadi əlaqələr qurmaqdır.

***Məsaim ABDULLAYEV***
***XQ***

## “Zəyəm Texnologiyalar Parkı” ASC-nin

***2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı***

**manatla**

| AKTİVLƏR | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | |
| Qeyri-maddi aktivlər | 543 664 | 546 032 |
| Torpaq, tikili və avadanlıqlar | 11 024 861 | 11 756 511 |
| İnvestisiya mülkiyyəti | - | - |
| Təxirə salınmış vergi aktivləri | - **11 568 525** | - **12 302 543** |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | |
| Ehtiyatlar | 1 214 153 | 1 534 486 |
| Qısamüddətli debitor borcları | 1 581 618 | 4 952 109 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 381 990 | 282 223 |
| Sair qısamüddətli aktivlər | 1 338 760 | 3 802 615 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | **4 516 521** | **10 571 433** |
| **CƏMİ AKTİVLƏR** | **16 085 046** | **22 873 976** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL:** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 18 305 246 | 18 305 246 |
| Kapital ehtiyatları | - | 11 276 438 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (14 608 901) | (21 385 558) |
| **CƏMİ KAPİTAL:** | **3 696 345** | **8 196 125** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | - | 849 381 |
| Uzunmüddətli kreditor borcları | - | - |
| Sair uzunmüddətli öhdəliklər | 9 394 650 | 9 442 413 |
| | **9 394 650** | **10 291 794** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1 069 292 | 1 931 106 |
| Qısamüddətli kreditor borcları | 818 486 | 1 421 643 |
| Sair qısamüddətli öhdəliklər | 1 106 272 | 1 033 308 |
| | **2 994 051** | **4 386 057** |
| **Cəmi öhdəliklər** | **12 388 701** | **14 677 851** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **16 085 046** | **22 873 976** |

**Mənfəət, zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 6 528 084 | 7 941 782 |
| Satışın maya dəyəri | (5 312 304) | (7 094 546) |
| **Ümumi mənfəət** | **1 215 780** | **847 236** |
| Sair əməliyyat gəlirləri | 27 719 | 58 350 |
| Kommersiya xərcləri | (211 827) | (94 097) |
| İnzibati xərclər | (1 492 159) | (1 242 241) |
| Sair əməliyyat xərcləri | (3 513 739) | (1 174 386) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **(3 974 225)** | **(1 605 140)** |
| Maliyyə gəlirləri | - | - |
| Maliyyə xərcləri | (102 926) | (120 409) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **(4 077 151)** | **(1 725 549)** |
| **Mənfəət vergisi xərcrləri** | **-** | **-** |
| Cari vergi xərcləri | - | - |
| Təxirə salınmış vergi xərcləri | - | - |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | **(4 077 151)** | **(1 725 549)** |

*Qayıdışın akkordları*

# Elin həkim oğlu Xocalıya qayıtdı

**Doğulub, boya-başa çatdığı kəndi erməni işğalına məruz qalanda Qoşqar Məhərrəmovun 21 yaşı olub. Acı xəbəri Bakıda eşidib. Azərbaycan Dövlət Tibb Universitetinin birinci kursunda təhsil alırmış. Öyrənib ki, ailəsi ev-eşiklərindən didərgin düşərək Ağdaş rayonunun Qaradeyin kəndinə pənah gətirib. Beləcə, oxuyub həkim olduqdan sonra yenidən Xocalıya qayıtmaq, orada doğmalarının sağlamlığının keşiyində dayanmaq kimi ən böyük arzusu puç olan Qoşqar uzun illər "məcburi köçkün" statusunun ağırlığını daşımalı, Vətən həsrətinin acılarını dadmalı olub. Sonra isə...**



Sonrasını özündən dinləmək məqsədilə cəmi bir neçə gün əvvəl, mayın 22-də sonuncu köç zamanı daimi yaşamaq üçün Xocalıya qayıtmış Qoşqar həkimin evinə üz tutduq. İş başındaydı. İxtisası üzrə yox a, əlində dəryaz həyəti basmış otları, cər-cəngəli biçirdi. Salamlaşıb, "işiniz irəli" dedik. Əlini saxlayıb gülə-gülə "vallah, ot biçməkdən ötrü də darıxmışdım, şükür bu günə" söyləyərək bizi evə dəvət etdi. Çay süfrəsi ətrafında söhbətimizə də elə yeni evindən başladıq. Təbrik edib, gözaydınlığı verdik, xoş günlər arzuladıq. Bildirdi ki, doğma Xocalıya qayıtdığı üçün yaşadığı xoş hissləri sözlə ifadə etməkdə çətinlik çəkir:

– Məcburi köçkünlük dövründə əsasən Ağdaşda və Gəncədə, qısa bir müddət isə Bakıda yaşamışam. Heç vaxt unutmaram, harada olduqsa, harada işlədimsə həmin yerin insanları bizə qucaq açdılar, dərdimizə şərik oldular. Hər zaman dövlətimizin qayğısını hiss etdik. Bir daha şahidi oldum ki, bizim necə böyük, müdrik xalqımız var. Qayğı ilə, məhəbbətlə əhatə olunmuşduq, di gəl, içimdə kövrək bir qəriblik hiss edirdim. Bir də ki, o yerlərdə nə qədər yaxşı dolansan da, malın-mülkün çox olsa, saraylarda yaşasan belə doğma yurddakı kasıb daxmanın yerini vermir. Ancaq nə kasıb daxma, sağ olsunlar, geniş, işıqlı otaqları, iri mətbəxi, sanitar qovşağı müasir üslubda təmir edilmiş üçotaqlı evlə təmin edilmişəm. Qaz, su, işıq daimidir, istilik sistemi qurulub, sürətli internetimiz... Əkib-becərməyə həyətimiz də genişdir, yaxşı meyvə ağacları var. Bir sözlə, rahat yaşayışımız üçün hər şey nəzərə alınıb, hər şey əladır. Üstəlik də, illər böyu həsrətini çəkdiyim Vətənimin havasını uduram, suyunu içirəm! Çox xoşbəxtəm!

Söhbət zamanı öyrəndik ki, ali məktəbi bitirdikdən sonra qardaş Türkiyədə ixtisasını artırmış Qoşqar Məhərrəmov 27 ilə yaxındır həkim işləyir, terapevt-qastroenderoloqdur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun şanlı qələbəsi ilə bitən 44 günlük Vətən müharibəsində iştirak edib, tibb xidməti baş leytenantıdır. Torpaqlarımızın mənfur düşmən işağlından azad edilməsindən dərhal sonra Qarabağda təmənnasız olaraq insanların sağlamlığının keşiyində dayanmaq üçün müraciət edib. Qismət isə, necə deyərlər, bu günəymiş. Böyük sevinc və fəxarətlə 33 il əvvəl yarımçıq qalmış arzularının reallaşdığını dedi:

– İnşallah, bundan sonra doğma yurdumda həkim kimi fəaliyyət göstərəcəyəm. Ancaq deyəsən, mənə işi düşən çox olmayacaq (gülür – M.R). Əvvəllər burada yaşayan insanlar indiki kimi tez-tez xəstələnmirdilər, çünki Qarabağın havası, suyu, təbiətinin özü müalicəvidir. Yadımdadır, o vaxt qapımıza bir bulaq çəkmişdik, suyu axdığı yeri ağappaq ağardırdı. Onda səbəbini bilmirdim, ancaq indi bir həkim kimi deyirəm: Qarabağda, Şərqi Zəngəzurda bulaqların çoxunun suyu insan orqanizmi üçün əhəmiyyətli olan minerallarla zəngindir. Üstəlik, havasına və relyefinə görə, bu yerlərdə müxtəlif xəstəliklərə, o cümlədən sümük-dayaq sistemi, oynaq xəstəliklərinə az rast gəlinir. Təzyiq xəstələri də burada özlərini rahat hiss edirlər. Yəni, təbiət özü insanların həkimidir. Mən də insanların sağlamlığı naminə əlimdən gələni edəcəyəm. Çünki bu, mənim illər öncə baş tutmamış, bu gün reallaşan ən böyük arzumdur. Başda möhtərəm Prezidentimiz olmaqla, bu arzumun reallaşmasında əməyi olan hər kəsə sonsuz minnətdarlığımı bildirirəm!



Qoşqar həkim yeni evində hələ ki, həyat yoldaşı Sevinc xanımla yaşayır. Bildirdi ki, qızları ailə qurub, necə deyərlər, yuvadan uçub, oğlu Kənan isə Türkiyədə Qaziantep Universitatində elektronika-energetika mühəndisliyi ixtisası üzrə təhsil alır:

– O da təhsilini bitirib ata-babasının doğma yurduna qayıdacağı, Qarabağın yenidən qurulmasında, dirçəldilməsində iştirak edəcəyi günü səbirsizliklə gözləyir. Çünki bu yerlərdə təhsilli, yüksək ixtisaslı, vətənpərvər gənclərimizə bizim indi daha çox ehtiyacımız var. Onlar da həvəslə geri qayıtmalı, müqəddəs şəhidlərimizin qanları bahasına işğaldan azad edilmiş torpaqlarımıza sahib çıxmalıdırlar. Məhz onların iştirakı ilə, o cümlədən birliyimiz sayəsində Qarabağımızı yenidən cənnətə çevirəcəyik!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

**"MOSKVİÇTEXXİDMƏT" ASC səhmdarlarının 2025-ci il mayın 3-də keçirilmiş illik ümumi yığıncağında təsdiqlənmiş 2024-cü ilin maliyyə hesabatı**

İşlərin görülməsi və xidmətlərin göstərilməsindən ümumi gəlir -196379 manat, əmək haqqı xərcləri – 82937.62 manat, sosial sığorta haqları – 16544.10 manat, xammal – material xərcləri – 51065.81 manat, icarə haqqı xərcləri – 7200 manat, enerji xərcləri – 6094.24 manat, su və kanalizasiya xərcləri – 957.61 manat, mühafizə xərcləri – 1533.60 manat, bank xidməti üzrə xərclər – 1679.81 manat, sair xərclər – 1524.77 manat, amortizasiya xərcləri – 4766.41 manat, sığorta xərcləri – 1443.20 manat, torpaq vergisi – 786.29 manat, əmlak vergisi – 656.16 manat, cəmi xərclər – 177189.62 manat, vergitutma məqsədləri üçün mənfəət – 19189.38 manat, mənfəət vergisi – 3837.88 manat, xalis mənfəət – 15351.50 manat, səhmdarların sayı – 32 nəfər, səhmlərin sayı – 40390 ədəd, nizamnamə kapitalı- 80780 manat, əsas vəsaitlərin qalıq dəyəri – 63233.12 manat debitor borcları – 29299.88 manat, kreditor borcları -6537.70 manat.

**Ünvan-Bakı şəhəri, Sumqayıt şossesi 4.**

## "Bakı Mexaniki-Təmir" QSC səhmdarlarının nəzərinə!

10 iyul 2025-ci il saat 16.00-da "Bakı Mexaniki-Təmir" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Maliyyə-təftiş komissiyasının hesabatı.
3. Digər məsələlər.

Telefon- 050-216-30-52.

Ünvan-Bakı, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 60.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 109 (30803) 27 may 2025-ci il, çərşənbə axşamı

Elimizdən-obamızdan

# Təndir çörəyinin ətri

**Mən atamın sonbeşik oğluyam. Gördüklərim, bildiklərim yaddaşımda nağıllardakı, nəğmələrdəki kimi qalıb. Ayağım yer, dilim söz tutandan ata-anamın dediyi hər sözü eşidib, hər kəlmənin mənasını qanmışam. Çətin dolanışıq dövrlərindən yaddaşımda yaşayan o qədər unudulmaz və şirin xatirələr var ki, yazmaqla qurtaran deyil.**



İkinci cahan savaşı milyonlarla ailənin ocağını söndürdüyü illərdə bizim ailəmizə də zərbə vurmuşdu. Atam odun-alovun içindən sağ çıxsa da, müharibədən ikinci qrup əlil kimi qayıtmışdı. (Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun şərəfinə mənə Həzi adını vermişdi). yanğısı könül yanğısı idi, ulu yanğı idi. Bir qardaşı müharibədən qayıtmamışdı. Bir oğlunu şəhid vermişdi. Anamın ürək yanğısı təndirin istisi, ocağın tüstüsü kimi ərşə bülənd olurdu. Ağlım kəsəndən anamı bir gözü gülən, bir gözü ağlayan gördüm. Taleyin ona verdiyi kədərə də, sevincə də həyatın



Müharibədən çıxmış bir ölkədə insanlar çörəklə sınağa çəkilirdi. Dağların qarı-buzu əriyənədək kənd dəyirmanında un üyütmək üçün günlərlə növbə yaranırdı. Qışın qarlı bir günündə atam at belində, kəhraba kimi sarı buğdanı dəyirmanda üyütdürüb gətirəndə evimizdə toy-bayram idi. Dolanışığımız çətin olsa da, təknəmizdən çörək əskik olmazdı. Ailəmiz dövrünün çoxuşaqlı – "bəxtəvər", kasıb bir ailəsi idi. Gün-güzəran çətin olanda ailəmiz dara düşdü. Amma uca Tanrı bir bölük külfəti olan anamı darda qoymurdu. Balalarının azuqəsini, süfrəsinin ruzisini verirdi.

...Elə ki, dəyirmandan un gəlirdi, anam təndirə od salırdı, həyətimiz, qapı-bacamız çörək ətrinə, bərəkət nuruna bələnirdi. Bərəkət nurunda Ay üzlü, ağbirçəkli anam nur topasına dönürdü.

12 övlad anası, "Qəhrəman ana"m təndirin başında yana-yana ağı deyib gümüldənirdi. Anamın hikməti, taleyin qisməti kimi baxırdı anam.

Yaşa dolduqca ürəyinin sevinci də, kədəri də, oğul-uşaq qayğıları da, ömür yükü də çoxalırdı. Anam dərdə bürünə-bürünə, balalarının eşqinə yaşayırdı. Dərdi dərin olsa da, onu dünyaya bağlayan, ömrünə işıq, könlünə qanad verən balalarına olan ülvi məhəbbəti idi. Atam evimizin dayağı-dirəyi, anam odu-ocağı, işığı-nuru idi.

Balalarının başına dönüb dolandıqca, göydə Günəş də anama pərvanəlik edirdi. Elə bil, qamətində qürurlu qəm yeriyən heyrət heykəliydi anam. Onun hər işinin əzabını, əziyyətini, halalını, hümmətini qohum-qonşu, hamı görürdü.

Qollarını çırmayıb şappaşapla xəmir yoğururdu. Təndirə çörək yapırdı. Çörəkləri təndirdən çıxardıb güllü örtüklü taxçanın üstünə düzürdü. Gəlib-gedənlərə çörəkdən pay verirdi. Deyirdi ki, çörək üstünə gələn adama çörəkdən pay verməsən, evin bərəkəti qaçar, çörək evdən küsər, təknədən tükənər.

Elə bil, səsindən göz yaşı tökülürdü yazıq anamın. Bayatılı, laylalı dili vardi. Bizi əzizləyərdi, oxşayardı. Ömürdən uzun illər ötsə də, onun bişirdiyi təndir çörəyinin dadı hələ də damağımdan getməyib. Nə qədər ki, mələk simalı, kövrək ürəkli, təndiri çörəkli anam vardı. Ata ocağımızda bərəkət nuru vardı. Nurun bərəkəti, çörəyin, unun bərəkəti vardı:

**Ərşə bülənd oldu alovla tüstü,**
**Çırpını yandırdı, təndiri çatdı.**
**Hava soyuq idi, təndir də isti,**
**Anam yun şalını çiyninə atdı.**

**Çırpı yana-yana baxırdım ona,**
**Hərdən az qalırdı əlləri yana,**
**Təndirin odunu salıb sahmana,**
**Anam kökələrdən əsər yaratdı.**

**Bişdi, Günəş kimi kökələr bişdi,**
**Təndirdən bir kökə qopub sürüşdü,**
**Onda elə bildim ürəyim düşdü –**
**Əl boyda bir kökə məni ağlatdı...**

**Uşaqlar çoxuydu, anamsa təkdi,**
**Bizi böyütməkçün, eh, nələr çəkdi...**
**Şalı kürəyində yorğan, döşəkdi,**
**Ən şirin yuxunu mən orda yatdım.**

**Canıma yayıldı kökənin ətri,**
**Bir də həyətdəki cökənin ətri.**
**Ürəyim gedirdi kökədən ötrü,**
**Nə yaxşı, mənə də bir kökə çatdı.**

**Şəhərdə təndirə baxıram dinməz,**
**Odunu-ocağı de, hardadır, bəs?!**
**Bərəkət var idi onda, tükənməz –**
**Anam bir dünyaydı, təndir həyatdı.**

**P.S.** Azərbaycanın təndir çörəyi də UNESCO-nun Mədəni İrs Siyahısına daxil edilib.

***Həzi HƏSƏNLİ,***
***şair- publisist***

İdman

## Slovakiyada avarçəkmə "qızıl"ı



**Avarçəkmə üzrə Azərbaycan komandası Slovakiyada yeniyetmə və gənclər arasında kayak, kanoe üzrə keçirilən 38-ci beynəlxalq "Bratislava reqatası" turnirində daha bir qızıl medal qazanıb.**

Yığmanın üzvü Tatyana Smilovenko 500 metr məsafədə bütün rəqiblərini üstələyərək 1-ci yeri tutub. İdmançı bundan əvvəl birnəfərlik kanoe qayığında 200 metr məsafəyə yürüşdə də rəqiblərini üstələyib.

Xatırladaq ki, 20-dən çox ölkənin mübarizə apardığı turnirdə təmsilçilərimizdən Əlimurad Hacızadə kayak qayığında 200 metr məsafə üzrə gümüş medala yiyələnib.

## Macarıstanda 1 "qızıl", "1 gümüş"



**Macarıstanın Sigetsenmikloş şəhərində sumo üzrə Avropa çempionatında komandamız 1 gümüş, 1 bürünc medal qazanıb.**

Yığma üzvlərindən U-23 kateqoriyasında döyüşən Rəsul Məmmədzadə gümüş medal əldə edib. Böyüklər kateqoriyasında mübarizə aparan Çingiz Səmədov isə bürünc medala sahib olub.

## Bakıda futbol günü



**FIFA-nın təşəbbüsü və dəstəyi, AFFA-nın təşkilatçılığı ilə 25 May Dünya Futbol Günü münasibətilə Bakıda kütləvi futbol festivalı keçirilib.**

"ASCO Arena"da təşkil edilən festivala 80-dən çox uşaq qatılıb. İştirakçılar futbol oynayıb, əyləncəli vaxt keçiriblər.

Qeyd edək ki, 2024-cü ildən etibarən BMT-nin qərarı ilə 25 may Dünya Futbol Günü kimi qeyd edilir.

***L.QURBANOVA***
***XQ***

# Naxçıvanda "rəngli uşaq dünyası"

**Naxçıvanda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Naxçıvan Şəhər İcra Hakimiyyəti, muxtar respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil, Mədəniyyət, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Uşaqların rəngli dünyası" festivalı keçiriləcək.**



Festival Naxçıvanda yerləşən "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində təşkil olunacaq.

Ərazidə xüsusi dekorlar və dörd əsas zonanın qurulması nəzərdə tutulur. "Təhsil zonası"nda uşaqlar üçün müxtəlif yaradıcı və maarifləndirici dərnəklər fəaliyyət göstərəcək. Burada rəqəmsal və intellektual zəka oyunları, xalçatoxuma, dulusçuluq, döymə, oyma, rəsm, muncuq işi və digər sahələr üzrə stendlər nümayiş olunacaq. "İdman zonası"nda isə stolüstü tennis, şahmat, voleybol və müxtəlif əyləncəli uşaq oyunları təşkil ediləcək.

***F. SALMANOVA***
***XQ***

# "Aztelekom"rəqəmsal gələcəyə himayədarlıq edir

**AZCON Holdinqə daxil olan "Aztelekom" MMC Bakıda keçiriləcək "GAMESUMMIT 2025" festivalının baş sponsoru kimi müasir mədəni tendensiyalarla maraqlananlar iştirakçılar üçün bilik və təcrübə mübadiləsi, əyləncə imkanı yaradan onlayn oyunlar, e-sport turnirləri keçirir, kospley və k-pop yarışmalar, eləcə də maraqlı musiqi çıxışları ilə zəngin proqram təqdim edir.**




Bütün bunlar qurumun innovasiya, yaradıcılıq və "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"na müvafiq olaraq ölkədə sürətlə inkişaf edən rəqəmsal ekosistemin dəstəklədiyini əks etdirir.Oyun həvəskarlarını, tərtibatçıları və rəqəmsal istedadları bir araya gətirən belə platformaları təşviq etməklə "Aztelekom" yeni nəsil texnologiya mütəxəssislərini həvəsləndirir və yüksəksürətli bağlantının açdığı imkanları geniş auditoriyaya nümayiş etdirməyə çalışır.

Xatırladaq ki, uğurla yekunlaşmış "Onlayn Azərbaycan" meqalayihəsinin əsas operatoru "Aztelekom" MMC genişzolaqlı və mobil şəbəkə təhlilləri üzrə qlobal şirkətdən "Ookla"nın "Ən sürətli sabit şəbəkə üzrə speedtest", "Ev Təsərrüfatlarının genişzolaqlı internetə qoşulmasının inkişafı ilə bağlı ən yaxşı təcrübə" mükafatlarına layiq görülüb. Hər 2 təsdiq sabit şəbəkə internet provayderinə ölkə tarixində ilk dəfə təqdim edilib.

***Qəzənfər QASIMOV***
***XQ***

HAVA

# Aranda yağmursuz, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 27-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var.**

Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 16-19°, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.



Havanın temperaturu gecə 15-20°, gündüz 27-32°, dağlarda gecə 5-10° , gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının kollektivi studiyanın direktoru Azər Quliyevə qardaşı

**BABƏK QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətova qardaşı

**İLQAR MƏDƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1084
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00